27 dekabr 2024 №96 (2161) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Mədəniyyət” qəzeti (1991–2024)

### Mədəniyyət tariximizin qərinədən artıq səhifəsi...



Əbədiyyətimiz mədəniyyətimizdədir... 1991-ci ilin 2 yanvarında bu şüarla nəşr həyatına qədəm qoymuşdu “Mədəniyyət” qəzeti. Görkəmli şair, vətənpərvər ziyalı Şahmar Əkbərzadənin təşəbbüsü və fədakarlığı, mədəniyyət naziri Polad Bülbüloğlunun yaxından dəstəyi və xeyir-duası ilə Azərbaycanın mətbuat salnaməsində yeni adla bir səhifə açılmışdı.

“Mədəniyyət ölməzlikdir. İnsanlığı yaşadan odur... Mədəniyyət qüdrətli anlamdır. Sözdən kitaba, kərpicdən saraya, əlifbadan elmə, ürf-adətdən hüquqa, zövqdən sənətə, dildən dinə qədər...”, – Şahmar Əkbərzadə baş redaktor kimi oxuculara ilk xitabında qeyd etmişdi.

Polad Bülbüloğlu Azərbaycanda mədəniyyət işçilərinin ayrıca qəzetinin olmasının əhəmiyyətini vurğulayaraq təbrik məktubunda yazırdı: “Uzun illərin həsrətindən sonra övlad tapan ata hissi keçirirəm. Gərək yolunu həsrətlə gözlədiyimiz mətbuat tribunamız mədəniyyətimizin dünəninə, bu gününə və sabahına ayna tuta bilsin, bizi dünya mədəniyyətinin yenilikləri ilə tanış etsin... “Mədəniyyət”in hər nömrəsini səbirsizliklə gözləyirik!”.

Qəzetin ilk sayında Müslüm Maqomayev, Arif Məlikov, Fərhad Bədəlbəyli və başqa mədəniyyət xadimlərinin xoş arzuları da yer almışdı.

***

1991-ci ilin yanvarında hələ sovet dövrü bitməmişdi, qəzetin başlığı altında “Azərbaycan SSR Mədəniyyət Nazirliyinin orqanı” yazılmış, yanında SSRİ mədəniyyət naziri Nikolay Qubenkonun təbrik teleqramı dərc olunmuşdu. Amma müstəqillik mehi əsirdi. SSRİ naziri ilə yanaşı, Türkiyənin mədəniyyət naziri Namiq Kamal Zeybəkin təbrik sözlərinin (həm də əl yazısı ilə) də yer alması bunun göstəricisi idi: “... Azərbaycan (ortaq) mədəniyyətimizin böyük qaynağıdır. Yeni doğan “Mədəniyyət”ə uzun və xeyirli həyat diləyirəm”.

“Mədəniyyət” bu diləklər işığında mətbu yoluna başladı. Ötən illərdə redaksiya heyəti, çap formatı, dövriliyi, dizaynı və s. dəyişsə də, respublikanın mədəni həyatını dolğun şəkildə işıqlandırmaq, oxuculara dünya mədəniyyəti ilə də bağlı maraqlı məlumatları çatdırmaq məramı dəyişmədi. Qərinədən artıq bu dövrdə “Mədəniyyət”in mətbuat tariximizdə layiqli yer tutduğunu söyləsəm, qeyri-təvazökarlıq kimi qəbul etməyin. Çünki həqiqət payı çoxdur. Bu qəzetin səhifələrində müstəqillik dövrü mədəniyyət tariximizin salnaməsi yazılıb. O salnamədə imzası olmaq həm məmnuniyyət, həm də məsuliyyətdir. Ötən illərdə bunu dərk edərək çalışdıq...



Sözün bu yerində “Mədəniyyət”in yaradıcısı və 2000-ci ilədək rəhbəri olmuş Şahmar Əkbərzadə başda olmaqla, ömür yolu bu qəzetdən keçən və dünyadan köçənləri, o cümlədən qəzetin səhifələrində qələmi ilə külüng çalmış ustad yazar Tahir Abbaslını, müxtəlif illərdə baş redaktor, redaktor olmuş Nemət Veysəllini, Canalı Mirzəliyevi, Tofiq Abdini minnətdarlıqla yad edirik. Qalanlara cansağlığı, uzun ömür diləyirik.

***

Qəzet informasiya daşıyıcısı olmaqla yanaşı, həm də informasiyanın, ümumilikdə tarixin arxivləşdiyi, saxlandığı çap məhsuludur. Elektron mənbələrin istifadə üçün daha əlçatan olması ilə yanaşı, qorunma baxımdan zəif tərəfi də hər kəsə bəllidir – günün birində o resurs elektron yaddaşdan silinə, itə bilər. Amma kağızda yazılan (çap edilən) qalır və qalacaq. Necə ki əsrlərdən günümüzə beləcə gəlib çıxıb. Bu baxımdan, Bulqakovun məşhur qəhrəmanının bir növ zərbi-məsələ çevrilən “Əlyazmaları yanmır” sözləri istehza kimi səslənsə də, əslində, dərin anlam ifadə edir.

Yazılan (dərc olunan) yazını oxuyarkən ona həm də toxuna bilirsənsə, fiziki olaraq onu hiss edirsənsə, deməк, onda bir varlıq var. Virtual deyil, real varlıq.

Amma zaman, dövr dəyişir. İnformasiya məkanında elektron resursların çəkisinin sürətlə artması ilə paralel çap mediasının elektron alternativlərlə əvəz olunması prosesi də qaçılmaz görünür. Hərçənd buna qarşı adekvat davrananlar da var. Dünyanın bir çox yerində qəzetlər elektron platformaya keçidlə bərabər, çap variantını da saxlayırlar. Amma bu ayrı bir yazının mövzusudur.

İndi isə sözü uzatmağın yeri yoxdur, çünki bu yazıya ayrılan sütun dolmaq üzrədir.

1991-ci ilin əvvəlində 1-ci sayı çapdan çıxan “Mədəniyyət” 2024-cü ilin sonunda 2161-ci sayı ilə qarşınızdadır. 2025-ci ildən yola necə davam edəcəyik? Təəssüf ki, bu barədə qəti fikir ifadə edə bilmirik.

Amma hər sonda yeni başlanğıc da görmək olar... Hər halda dünyanın sonu deyil...

“Mədəniyyət”in 2008-ci ildən fəaliyyət göstərən saytı – medeniyyet.az ölkəmizdə bu sahə ilə bağlı ən zəngin elektron resursdur və bundan sonra onu böyütməyə çalışacağıq. Mədəniyyət Nazirliyinin təşəbbüsü və Milli Kitabxananın iştirakı ilə PDF formatda külliyyat halına salınan qəzetin çap arxivi də hər kəsin istifadəsi üçün açıq olacaq.

***

Keçmişdən günümüzə hər bir xalqın inkişafı mədəni tərəqqi ilə, intibahla ölçülüb. Əsrlərdən bizə qalan ən zəngin dəyər mədəni irsdir. Çox bəyəndiyim bir yapon xalq məsəlində deyildiyi kimi: “Dünyada hər şey unudulandan sonra qalan varsa, o, mədəniyyətdir”.

“Mədəniyyət”in bütün oxucularına sayğılarla

**Vüqar Əliyev**
**baş redaktor**

## İlin son yazısı – arzular isə sonsuzdur

### 2025-ci ildə Azərbaycanın daha qüdrətli və firavan olması diləyi ilə...

Ən yeni tariximizin daha bir ilini başa vururuq. 2020-ci ilin Vətən müharibəsindəki şanlı qalibiyyətinin yüksəltdiyi milli ruhla artıq beşinci Yeni ili qarşılamağa hazırlaşırıq. Başa çatan il, həmçinin Azərbaycanın bütün ərazisi üzərində suverenliyini tam və qəti şəkildə bərpa etdikdən (2023) sonra yaşadığımız il kimi tarixdə qalacaq.

2025-ci ildə Azərbaycanın dövlət kimi daha da qüdrətli və firavan olması hamımızın arzusudur. Həm də ona görə ki, yaşadığımız ildə bunun zəmini olacaq çox işlər görüldü.

2024-cü ildə işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış daha da intişar tapdı. Azad torpaqlarımız abad olduqca, doğma sakinlərinə daha geniş qucaq açdıqca o yerlərə mədəniyyətimiz də qayıdır.

2024-cü ildə Azərbaycan mədəniyyətlərarası dialoq məkanı kimi özünü dünyaya bir daha tanıtdı, incəsənət adına beynəlxalq müsabiqə-festivallara, eləcə də başqa sahələri əhatə edən irimiqyaslı layihələrə ev sahibliyi etdi. Bu qəbildən ən böyük hadisə isə, sözsüz ki, yaşıl dünya naminə qlobal həmrəyliyi təcəssüm etdirən COP29 – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası oldu. 200-dək ölkənin qatıldığı bu tədbirlə Azərbaycan, Bakı dünyanın gündəminə öz möhürünü vurdu.



Bakı



Xankəndi

Bu il Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlətçilik yoluna ümumxalq etimadının bir daha təsdiqi ilə də əlamətdar oldu. Prezident və parlament seçkilərinin nəticələri bunun bariz nümayişi idi.

2025-ci il üçün cəmiyyət və ayrılıqda fərd olaraq arzularımız da, təbii ki, çoxdur. Baxmayaraq ki, ilin son həftəsinə “damğa”sını vuran müdhiş təyyarə qəzasının əhvalımıza qatdığı pərişanlıq da var. Daha kiçik çevrədə özümüz üçün böyük görünən problemlərimiz də yox deyil. Amma hər şeyə rəğmən həyat davam edir. Bu davam üçün çətinlikləri də bir-birimizə dayaq, dəstək olaraq dəf etməliyik.

Yeni ili ənənəvi olaraq digər əlamətdar gün – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə birgə qarşılayırıq. Bu münasibətlə cümlə xalqımızı, eləcə də dünyanın dörd bir yanında yaşayan həmvətənlərimizi təbrik edir, 2025-ci ilin dövlətimizə, xalqımıza, hər birimizə düşərli il olmasını diləyirik.

## Mətbuat tariximizin 100 yaşlı cəfakeşi

Dekabrın 25-də Milli Kitabxanada “Şirməmməd Hüseynov. Biblioqrafiya” kitabının və eyniadlı elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.

Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə həyata keçirdiyi “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından yeni nəşr görkəmli alim və pedaqoq, Cümhuriyyət və mətbuat tariximizin böyük tədqiqatçısı, professor Şirməmməd Hüseynovun (1924–2019) anadan olmasının 100 illiyinə həsr edilib.

Təqdimat mərasimində Milli Məclisin sədr müavini akademik Rafael Hüseynov, mədəniyyət naziri Adil Kərimli, elm və mədəniyyət xadimləri, media nümayəndələri iştirak ediblər.



Milli Kitabxananın direktoru professor Kərim Tahirov giriş sözündə qeyd edib ki, Şirməmməd Hüseynov Cümhuriyyət dövrünün, Azərbaycan müstəqillik tarixinin, eləcə də mətbuat tarixinin öyrənilməsində böyük rol oynayan şəxsiyyətdir. O, milli məfkurəmizin böyük simaları Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, Ə.Ağayev, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə və başqa mütəfəkkirlərin zəngin irsini, milli tərəqqi, istiqlal düşüncəsi ilə bağlı ölməz fikirlərini böyük fədakarlıqla toplayaraq abidə nəşrlər ortaya qoyub.

*davamı səh. 2-də*

## “Azərbaycan xalçasının ehtişamı – Səfəvi dövrü xəzinəsi”

### Milli Xalça Muzeyindəki sərgi gələn ilin may ayınadək davam edəcək

Dekabrın 24-də Azərbaycan Milli Xalça Muzeyində “Azərbaycan xalçasının ehtişamı. Səfəvi dövrü xəzinəsi” adlı sərginin açılış mərasimi keçirildi.

Sərgi Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi və “Amir Textiles and Rugs”ın (“Oskouei” MMC) təşkilatçılığı, “bp-Azərbaycan”ın baş sponsorluğu, ABŞ-Azərbaycan Ticarət Palatası və “Silk Way West Airlines” şirkətinin dəstəyi ilə gerçəkləşib.

Milli Xalça Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Əminə Məlikova əvvəlcə muzeyin kollektivi adından Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik etdi.

Qeyd olundu ki, sərgidə ABŞ vətəndaşı Əmir Oskoueinin kolleksiyasından XVII-XVIII əsrlərə aid 14 unikal xalça və bədii tikmə nümayiş olunur. Sənət əsərləri sırasında dünyaca məşhur “Əfşan”, “Qoca”, “Xətai” (“Əjdahalı”) kompozisiyalı saray xalıları xüsusi yer tutur. Sərgidə təqdim olunan nadir eksponatlar barədə sensor ekran vasitəsilə Azərbaycan və ingilis dillərində ətraflı məlumat əldə etmək mümkündür.



Sonra Milli Xalça Muzeyinin keçdiyi yolu və onun yeni binasının inşasını özündə əks etdirən videoçarx nümayiş olundu.

*davamı səh. 3-də*

## “İRS”də yaşadılan tarixi-mədəni sərvət

Dekabrın 24-də Bakıda “İRS” silsiləsi çərçivəsində 2024-cü ildə nəşr edilən kitabların təqdimat mərasimi keçirilib.

“İRS” Nəşriyyat Evinin baş redaktoru Musa Mərcanlı müxtəlif dillərdə çap olunmuş kitablar haqqında məlumat verib. Vurğulayıb ki, nəfis tərtibatı və yüksək bədii-estetik görünüşü ilə diqqəti cəlb edən nəşrlərdə Azərbaycanın tarixi, mədəniyyəti, milli irsi dünyaya müxtəlif dillərdə təqdim olunur.

Baş redaktor diqqətə çatdırıb ki, “İrs” jurnalı 25 ildir işıq üzü görür və 20 dildə dünyaya yayımlanır. Jurnal ölkəmizin mədəniyyətini, tarixini, coğrafiyasını Azərbaycanın hüdudlarından kənarda tanıtmaq, orada yaşayan çoxsaylı soydaşlarımızı yenidən öz köklərinə qaytarmaq məqsədilə nəşr olunur. 2011-ci ildən isə “İrs” jurnalının materialları əsasında bu silsilədən tematik kitablar nəşr edilir. Ensiklopedik “İrs” kitabları Azərbaycanın xaricdə tanıdılması istiqamətində yeni səhifə açıb.

*davamı səh. 3-də*




## Sənət ocaqlarında Yeni il proqramları

2024-cü ili yola salırıq. Teatr-konsert müəssisələri də tamaşaçıların bayram ovqatına köklənmək, xüsusən uşaqların qış tətili və Yeni il bayramını yaddaqalan etmək üçün zəngin proqram tərtib edib.

Xatırladaq ki, 30 dekabr – 5 yanvar tarixləri ölkədə qeyri-iş günləridir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında balacaları “Nindza tısbağalar və kapitan Cekin macəraları” tamaşası gözləyir. Tamaşalar dekabrın 27-dən yanvarın 2-dək hər gün 4 seans olmaqla göstəriləcək.

Akademik Musiqili Teatrın Yeni il tamaşası – “Evdə tək” 28 dekabr tarixindən 5 yanvar tarixinədək hər gün 4 seans olmaqla uşaqlara maraqlı və əyləncə dolu istirahət vəd edir.

Milli Gənc Tamaşaçılar Teatrının bayram repertuarında “Madaqaskarlı dostların Yeni il sərgüzəştləri” var. Tamaşa tətil günlərində 4 seans olaraq göstəriləcək.

*davamı səh. 2-də*

## AZAL-ın təyyarəsi niyə qəzaya uğrayıb?

Dekabrın 25-də Bakı-Qroznı (Rusiya) reysi üzrə uçuş həyata keçirən AZAL-a məxsus təyyarə Aktau (Qazaxıstan) şəhəri yaxınlığında qəzaya uğrayıb. Bununla bağlı bir çox müəmmalı məqamlar və cavabsız suallar var.

Son məlumatlara görə, təyyarə Qroznı şəhərinə yaxınlaşarkən şəhər üzərində pilotsuz uçuş aparatlarının aktivliyi müşahidə olunub və Rusiyanın ərazidəki hava hücumundan müdafiə sistemi tərəfindən atılan raketlərdən biri təyyarənin yaxınlığında partlayıb.

Zərər görmüş təyyarənin ekipajının məcburi eniş üçün etdiyi sorğulara baxmayaraq, yaxın trayektoriyadakı Rusiya hava limanlarına eniş icazəsi verilməyib. GPS naviqasiyası da bir müddət bloklanıb. Təyyarə Xəzər dənizi üzərindən Aktau şəhərinə uçmağa məcbur olub və pilotlar avtomatik idarəetmə sistemi faktiki sıradan çıxan təyyarəni mexaniki rejimdə endirməyə cəhd ediblər. Məcburi eniş zamanı təyyarə qəzaya uğrayıb. Təyyarədə olan 67 nəfərdən 38-i həlak olub.



# Qəzanın bütün təfərrüatı araşdırılıb ictimaiyyətə məlumat veriləcək

Xəbər verildiyi kimi, 25 dekabr 2024-cü il tarixdə "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhərinin 3 kilometr yaxınlığında qəza enişi edib.

Təyyarədə 62 sərnişin (37 nəfər Azərbaycan, 16 nəfər Rusiya, 6 nəfər Qazaxıstan, 3 nəfər Qırğızıstan vətəndaşı) və 5 ekipaj üzvü olub.

Qəza nəticəsində 38 nəfər (o cümlədən 3 ekipaj üzvü) həlak olub. Onlardan 26 nəfər Azərbaycan vətəndaşıdır. 29 nəfər qəzadan sağ (yaralı) olaraq qurtulub. Son məlumata görə, 16 nəfər Azərbaycan vətəndaşı sağ qalıb.

***

Dekabrın 25-də MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Sankt-Peterburq şəhərinə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.

Təyyarə endikdən sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib.

Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət, onların ailələrinə, yaxınlarına səbir diləyən və başsağlığı verən dövlətimizin başçısı bildirib ki, bu, böyük faciədir: "Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə – Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq".

***

Qeyd edək ki, Prezidentin müvafiq sərəncamına əsasən, Baş nazir Əli Əsədovun sədrliyi ilə yaradılan Dövlət Komissiyasına qəza nəticəsində həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə müvafiq yardım göstərilməsini təmin etmək, qəza nəticəsində həlak olmuş və xəsarət almış xarici ölkə vətəndaşları ilə bağlı məsələləri həll etmək, komissiyanın fəaliyyəti barədə ictimaiyyətə mütəmadi məlumat vermək tapşırılıb.

Dekabrın 25-də Dövlət Komissiyası üzvlərindən bir qrup Aktau şəhərinə gedib və Qazaxıstanın aidiyyəti qurumları ilə birlikdə qəzadan sonra zəruri tədbirlərin görülməsində iştitak edib. Qəzadan sağ çıxan və səhhəti nisbətən qənaətbəxş olanlardan bir qrup dekabrın 26-da Azərbaycana gətirilib. Həlak olanların meyitlərinin, eləcə də ağır yaralıların gətirilməsi ilə bağlı müvafiq tədbirlər görülür.

***

Prezident İlham Əliyevin digər sərəncamı ilə Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib.

Matəmlə əlaqədar Mədəniyyət Nazirliyinin tabeliyindəki teatr-konsert müəssisələrində 26 dekabr tarixinə nəzərdə tutulan mədəni-kütləvi tədbirlər təxirə salınıb.

Nazirliyin kollektivi təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyir, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Minimum əməkhaqqı 400 manat, minimum pensiya 320 manat olacaq

Prezident İlham Əliyev dekabrın 23-də əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamla minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib.

Nazirlər Kabinetinə əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini isə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Bundan əlavə, Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

# "Aktyor sənətini öyrən"

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi ilə Azərbaycan Rəssamlıq Məktəbinin "Aktyor sənətini öyrən" layihəsi davam edir. Təlimin ilk üç ayının nəticələrinə əsasən, layihə çərçivəsində imtahanlar təşkil olunub.



İlk imtahan (30 noyabr) musiqili tamaşalar üzrə olub: Əməkdar artist Qurban Məsimovun teatr və kino aktyorluğu üzrə kiçik qrupunun quruluşunda "Mama" və Əməkdar artist Qasım Nağının rəhbərliyi ilə kiçik qrupunun quruluşunda isə "Gülüncün nağılı". İmtahanlar uğurla keçib və tamaşaçılar gənc istedadların çıxışlarını maraqla qarşılayıblar.

Dekabrın 11-də Azərbaycan Rəssamlıq Məktəbinin yuxarı yaş qrupu (rəhbər – Xalq artisti Məmmədsəfa Qasımov) üzrə "Etüdlər" imtahanı gerçəkləşib.

Nağılların müəllifi Gülzar İbrahimova, teatrşünas Dağlar Yusif, Əməkdar artist Elman Rəfiyev, Xalq artisti Cəfər Namiq Kamal və başqaları tamaşalarla bağlı fikirlərini bildiriblər. Onlar layihənin əhəmiyyətini və tələbələrin çıxışını yüksək qiymətləndirib, tədris proqramının qısa müddətdə uğurla mənimsənildiyini vurğulayıblar.

"Aktyor sənətini öyrən" layihəsinin əsas məqsədi uşaq və yeniyetmələr arasında peşəkar teatr sənətinin populyarlaşdırılması, müstəqil incəsənət təhsili sahəsinin peşəkarlaşdırılması, bu istiqamətdə konseptual yeniliklərdən səmərəli istifadə etməkdir.

# "Qərbi Azərbaycan – qədim tarixi yurdumuz"

## AzMİU tələbələrinin sərgisi

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Qərbi Azərbaycan – qədim tarixi yurdumuz" mövzusunda rəsm sərgisi açılıb.



Rektor Gülçöhrə Məmmədova mərasimdə çıxış edərək bildirib ki, sərgidə nümayiş olunan əsərlər Qərbi Azərbaycanın maddi və mədəni irsini, tarixi abidələrini və adət-ənənələrini əks etdirir. O, həmçinin Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdışın davamı olaraq, Qərbi Azərbaycana da qayıdışın qaçılmaz olduğunu bildirib.

Qərbi Azərbaycan İcmasının aparat rəhbəri sənətşünas Qalib Qasımov tarixi yurd yerlərimizlə bağlı belə sərgilərin əhəmiyyətindən söz açıb.

Birinci Qarabağ müharibəsi şəhidi Şirindil Həsənquliyevin bacısı Nazlıxanım Həsənquliyeva və İkinci Qarabağ müharibəsi şəhidi Rauf İbadovun atası Məhərrəm İbadov da ürək sözlərini bölüşüblər.

Təqdim edilən əsərlər AzMİU-nun Memarlıq və Dizayn fakültələrinin tələbələri tərəfindən Təsviri incəsənət kafedrası müəllimlərinin rəhbərliyi ilə hazırlanıb.

Sərgidə fərqlənən tələbələrə diplomlar, digər iştirakçılara təşəkkürnamələr təqdim olunub.

# Mətbuat tariximizin 100 yaşlı cəfakeşi

## Şirməmməd Hüseynovun yubileyi münasibətilə biblioqrafiya nəşr olunub

*əvvəli səh. 1-də*

Direktor diqqətə çatdırıb ki, "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırlanıb nəşr edilən biblioqrafiyaların məqsədi belə insanların xatirəsini yaşatmaqdır.

Milli Məclisin sədr müavini akademik Rafael Hüseynov Şirməmməd Hüseynovun Azərbaycan müstəqillik mübarizələri və istiqlal düşüncəsinin salnaməçilərindən biri olduğunu söyləyib, alimin həyat yolundan və yaradıcılığından bəhs edib. O, Şirməmməd Hüseynov kimi insanların millətin sərvəti olduğunu vurğulayıb. Bildirib ki, təqdim olunan biblioqrafiya kitabı Şirməmməd Hüseynovun kimliyi barədə suala cavabın ən mükəmməl nümunələrindən biridir və böyük cəfakeş alimin xatirəsini yaşadacaq abidədir.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Şirməmməd Hüseynovu bənzərsiz şəxsiyyət, mətbuat fədaisi, ustad müəllim kimi xarakterizə edib. Qeyd edib ki, Şirməmməd müəllim müstəqillik dövrünün elmi və siyasi publisistikasının yaradıcılarından, mətbuat tarixinin ən görkəmli tədqiqatçılarından biridir. O, çoxcildlik mətbuat tarixi salnaməsinin yaradıcısı, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir. Biblioqrafiya kitabı onun fəaliyyətini, yaradıcılığını araşdıranlar üçün istinad mənbəyi olacaq.



Milli Məclisin Elm və təhsil komitəsinin sədri professor Anar İsgəndərov, Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev, BDU-nun professorları Cahangir Məmmədli, Qulu Məhərrəmli, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Milli Məclisin deputatı Vüqar Rəhimzadə, Medianın İnkişafı Agentliyinin direktor müavini Natiq Məmmədli "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan çıxış edərək Şirməmməd Hüseynov haqqında xatirələrini bölüşüblər.

Çıxışlarda Şirməmməd Hüseynov Azərbaycan mətbuat tarixinin yaradıcısı, ictimai fikir tarixinin, eləcə də Cümhuriyyət dövrünün tədqiqatçısı kimi xarakterizə olunub. Onun həm alim, həm də pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simalarının irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında mühüm xidmətlər göstərdiyi vurğulanıb.

Tədbirdə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Professor Şirməmməd Hüseynov – 100" adlı elektron məlumat bazasının təqdimatı da olub.

Sonda çıxış edən Şirməmməd Hüseynovun qızı, Azərbaycan Milli Konservatoriyasının prorektoru professor Lalə Hüseynova tədbirin təşkilinə görə Milli Kitabxanaya, eləcə də biblioqrafiyanın hazırlanmasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Qeyd edək ki, "Şirməmməd Hüseynov. Biblioqrafiya"sının tərtibçisi Lalə Şirinova, elmi redaktoru Kərim Tahirov, ön sözün müəllifi akademik Rafael Hüseynov, məsləhətçisi və redaktoru Ülkər Hüseynovadır.

# "Sənətkarın dostu" – tanınmış balaban ifaçısı ilə görüş

Dekabrın 25-də Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə "Sənətkarın dostu" layihəsi üzrə növbəti görüş keçirilib.

Georgi Şaroyev adına 35 nömrəli onbirillik Musiqi məktəbində keçirilən və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş görüşün qonağı bu il 60 yaşını qeyd edən balaban ifaçısı, Xalq artisti Əlixan Səmədov olub.

Əvvəlcə "Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra MEMİM-in direktor vəzifəsini icra edən Vüqar Hümbətov, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev və G.Şaroyev adına Musiqi məktəbinin direktoru Vəfa Həziyeva çıxış edərək layihənin əhəmiyyətini vurğulayıb, Əlixan Səmədovun yaradıcılıq yolundan danışıblar.

Əlixan Səmədov həyat və yaradıcılığı, balaban ifaçılığı sənəti, pedaqoji fəaliyyəti, uşaq və gənclərin nəfəs alətlərinə marağının artırılması haqqında söhbət açıb. Xalq artisti eyni zamanda balaban haqqında yazdığı kitabından bəhs edərək milli musiqimizin müəllif hüquqlarının qorunmasının zəruriliyini vurğulayıb, bu sahədə təbliğatın əhəmiyyətindən danışıb.

Sonra sənətkarın ifasında Səid Rüstəmovun "Getmə" kompozisiyası, Musiqi məktəbinin IX sinif şagirdləri Məhəmməd Bayra-



mov və Mirnicat Yaqubovun (müəllim: Oqtay Mürşüdov, müşayiət: Dinar İsgəndərova) ifasında isə Üzeyir Hacıbəylinin "Aşıqsayağı", Ələkbər Tağıyevin "Sən gəlməz oldun", Süleyman Ələsgərovun "Xəyala dalarkən" əsərləri səslənib.

Ustad dərsi formatında keçirilən tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Sənət ocaqlarında Yeni il proqramları

*əvvəli səh. 1-də*

Akademik Rus Dram Teatrının səhnəsində də uşaqlar və valideynləri xüsusi hazırlanmış musiqili şou – "Şaxta baba ilə Yeni il karnavalı" gözləyir.

Şuşa Dövlət Musiqili Dram Teatrı tamaşaçıları "Şaxta babaya məktub" yazmağa dəvət edir. Şaxta baba, Qar qız, nağıl qəhrəmanları, musiqili-əyləncəli proqram və nağıl-tamaşa sizi gözləyir.

Azərbaycan Dövlət Kukla Teatrı ənənəsinə sadiq qalıb və Yeni il bayramı və məktəblilərin qış tətili günlərinə yeni tamaşa hazırlayıb. Onlar "Şaxta baba haradadır" sualına cavab tapmağa çalışacaqlar. Macəra dolu tamaşa hər gün 4 seans olmaqla 27 dekabr – 5 yanvar tarixlərində nümayiş olunacaq.

Heydər Əliyev Sarayı da bayramsayağı bəzədilərək "Şaxta babanın xəzinəsi" adlı yeni şou proqramla sizi gözləyir. 28, 29 dekabr, 2, 3, 4 yanvar tarixlərində hər gün 3 seans (12, 14 və 16:00) nəzərdə tutulub.




Dövlət Mahnı Teatrında "Milad hekayəsi" danışılacaq. Həyatını sərvət toplamağa həsr edən bir insanın ibrətamiz hekayəsi bizə puldan daha vacib şeylərin olduğunu göstərəcək.

Onu da qeyd edək ki, bölgələrdəki sənət ocaqları – Lənkəran, Şəki, Qazax, Füzuli, Salyan, Naxçıvan, Qax və Gəncədəki Dram və Kukla teatrları da uşaqlar üçün rəngarəng bayram tamaşaları hazırlayıb.

**Həmidə**

# Azərbaycanlı kamançaçı Qazaxıstanda müsabiqədə fəxri qonaq olub

Qazaxıstanın Aktau şəhərində görkəmli dombra ifaçısı və bəstəkar Murat Oskenbayulinin 120 illiyinə həsr olunan III Beynəlxalq xalq çalğı alətləri müsabiqəsi keçirilib.




Azərbaycan Milli Konservatoriyasının müəllimi, TÜRKSOY Xalq Çalğı Alətləri Orkestrinin solisti, kamança ifaçısı Pərviz Fərhadov müsabiqədə fəxri qonaq qismində iştirak edib.

O, müsabiqə çərçivəsində orkestrlə uğurlu ifasına görə təşkilat komitəsi tərəfindən diplom və mükafatla təltif olunub.

P.Fərhadov Qazaxıstanda xalq çalğı alətləri ilə birgə Azərbaycan musiqi əsərlərindən ibarət konsert verməklə bağlı təklif alıb.

əvvəli səh. 1-də

# “Azərbaycan xalçasının ehtişamı – Səfəvi dövrü xəzinəsi”

## Milli Xalça Muzeyindəki sərgi gələn ilin may ayınadək davam edəcək

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirdi ki, Azərbaycanın zəngin sənət növləri arasında xalçanın mühüm yeri var: “Xalça xalqımızın həyat fəlsəfəsini, estetik duyumunu, dünyagörüşünü əks etdirir. Biz erkən vaxtlardan xalçalar vasitəsilə rəngləri, naxışları dərk etməyə başlamışıq. Onun istisi hər birimizin evinə hərarət gətirib, bəzəyinə çevrilib. Xalça mirasdır, xalça sərvətdir, lakin ən əsası, xalqımızın genetik kod daşıyıcısıdır”.

Bu isə daha sonra Şərq incəsənətində böyük təsirə səbəb olub.

Nazir müavini söylədi ki, qədim xalçaçılıq sənəti Ümummilli lider Heydər Əliyevin daim qayğı göstərdiyi və yüksək qiymətləndirdiyi bir sahə kimi inkişaf edib. Bu diqqət və qayğının nəticəsində Azərbaycanın Mehriban Əliyevanın təşəbbüsü və əməyi nəticəsində 2010-cu ildə Azərbaycan xalça sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır.

“Amir Textiles and Rugs”ın rəhbəri, kolleksiyaçı Əmir Oskouei tədbirdə iştirakından məmnunluğunu bildirdi.

Bədii hissədə Nihad Qədirli (tar) və Toğrul Qasımovun (kamança) müşayiəti ilə xanəndələr Zeynəb Nəcəfova və Rəvan





Bildirildi ki, XVI-XVII əsrlər Azərbaycan xalçaçılıq sənəti tarixində ən zəngin dövrlərdəndir. Səfəvilərin hakimiyyətə gəlməsindən başlayaraq xalçaların yaradılmasında yalnız toxucu deyil, dövrün görkəmli rəssamları da iştirak ediblər. Dövrün miniatür rəssamları Azərbaycan ornamental incəsənət məktəbinin formalaşmasında mühüm rol oynayıblar.

qədim xalçaları və xalq tətbiqi sənəti nümunələrinin geniş miqyasda muzey fondunda toplanmasına imkan yaranıb. 1972-ci ildə muzeyin təntənəli açılış mərasimi isə Heydər Əliyevin iştirakı ilə keçirilib. Prezident İlham Əliyevin xalqımızın mədəniyyətinə, mədəni irsimizin təbliğinə göstərdiyi diqqət və qayğısı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım

“bp” şirkətinin Xəzər bölgəsində xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qurumun mədəni layihələrindən söz açdı, bu istiqamətdə işlərin davam etdiriləcəyini vurğuladı.

Daha sonra Təbriz miniatürlərindəki saray xalıları haqqında süni intellekt vasitəsilə hazırlanmış videoçarx göstərildi.

Qaçayev tərəfindən musiqi nömrələri səsləndirildi, Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında “Uzundərə”, “Şələqoy” və s. rəqslər təqdim edildi.

Sonda qonaqlar sərgi ilə yaxından tanış oldular. “Azərbaycan xalçasının ehtişamı. Səfəvi dövrü xəzinəsi” sərgisi 2025-ci il mayın 10-dək davam edəcək.

**Nurəddin**

# “Füzuli sevgisi” və “Naxçıvan – 100” xalçalarının təqdimatı





Azərbaycan Milli Xalça Muzeyinin Ənənəvi texnologiyalar şöbəsində ərsəyə gələn “Füzuli sevgisi” adlı xalça təqdim edilib.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş xalçanın müəllifi Əməkdar rəssam Taryer Başirovdur.

Təqdimat mərasimində muzeyin direktoru Əminə Məlikova qeyd edib ki, xalçaçılar Lalə Manafova və İlhamə Əhmədovanın toxuduğu bu nadir eksponat muzeyin fondunu zənginləşdirəcək.

Taryer Başirov artıq unudulmaqda olan dolama texnikasında hazırlanan xalçanın yaranma tarixçəsindən söz açıb: “Muzeyimizin ən zəngin kolleksiyalarında belə buna bənzər heç nə yoxdur. Bu texnika keçmişin əsl yadigarıdır və biz onu canlandıra bilmişik”.

Rəssam xalçanın tərtibat elementləri haqqında danışıb, onların rəmzi mənasını və Füzuli irsi ilə bağlılığını vurğulayıb.

Tədbir çərçivəsində Beynəlxalq Muğam Mərkəzinin Cahangir Cahangirov adına xorunun (bədii rəhbər Əməkdar müəllim Təranə Yusifova) ifasında musiqi proqramı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri tərəfindən “Leyli və Məcnun” pantomim kompozisiyası təqdim edilib.

***

Azərbaycan Milli Xalça Muzeyində Kamil Əliyev adına Naxçıvan Dövlət Xalça Muzeyinin əməkdaşları tərəfindən hazırlanmış “Naxçıvan – 100” xalçasının da təqdimat mərasimi keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, təqdim olunan xalçanın sadəcə bir sənət nümunəsi deyil, Naxçıvanın qədim tarixini, zəngin mədəniyyətini və əzəmətli simvollarını əks etdirən əsərdir.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bu xalçanın tarixi yaddaşımızın bir parçasına çevriləcəyini söyləyib. O, Azərbaycan xalq tətbiqi sənətinin bir qolu olan xalçaçılığı milli kod daşıyıcısı kimi səciyyələndirib.

“Naxçıvan – 100” xalçasının qədim ənənələrə uyğun şəkildə hanadan kəsimi mərasimi olub.

Tədbir Naxçıvan Dövlət Filarmoniyası musiqiçilərinin ifasında konsert proqramı ilə davam edib.

# “İRS”də yaşadılan tarixi-mədəni sərvət




əvvəli səh. 1-də

M.Mərcanlı bu il silsilədən işıq üzü görən beş kitab – “Qarabağ yeni sətirdən”, “COP29: Yaşıl ümid rəngidir”, “Şirvanşahların mininci ili”, “Şuşa” və “Kralların kitabı” haqqında məlumat verib. Bildirib ki, birinci kitab Qarabağın dirçəlişi ilə bağlıdır və bu, nəzərdə tutulan trilogiyanın bir cildidir. Kitabda Qarabağda aparılan tikinti, quruculuq, bərpa işləri, insanların qayıdışı barədə məlumatlar əksini tapıb: “Ümumilikdə Qarabağla bağlı 10-a yaxın kitab nəşr etmişik. Qarabağın mədəniyyəti, tarixi, incəsənəti o qədər zəngindir ki, onlar haqqında yazmaq, gələcək nəsillərə çatdırmaq olduqca vacibdir”.

Baş redaktor “İRS” silsiləsindən kitabların nəşrinə ilk gündən dəstək verən “Paşa Həyat Sığorta” şirkətinə xüsusi minnətdarlığını bildirib.

“Paşa Həyat Sığorta” ASC-nin idarə heyətinin sədri Niyaz İsmayılov, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi İdarə Heyətinin sədri Vüqar Süleymanov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, “Şuşa” kitabının ərəb dilinə tərcüməçisi Əhməd Sami əl-Aydi (Misir) çıxış edərək “İRS” Nəşriyyat Evinin mədəniyyətimizin dünyada tanıdılması istiqamətində gördüyü işləri yüksək qiymətləndiriblər.

Vurğulanıb ki, “İRS” seriyasından nəşr olunan kitablar Azərbaycanın tarixi-mədəni zənginliyini müxtəlif dillərdə oxuculara çatdırır.

Tədbirdə çıxışlar arasında musiqi nömrələri təqdim olunub.

# Kövkəb Səfərəliyeva adına festival-müsabiqənin qala-konserti

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında Kövkəb Səfərəliyeva adına I Beynəlxalq festival-müsabiqənin qala-konserti keçirilib.



Dekabrın 19-da gerçəkləşən konsertdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin “Piccolo Tutti” orkestri (bədii rəhbər Teymur Göyçayev) və “Festival” orkestrinin (dirijor Robert Canetti, İsrail; konsertmeysterlər Tomris Hüseynova, Aqşin İsmayılov və İrina Mehdiyeva) müşayiəti ilə festivalın I yer və Qran-pri laureatları Kamilla Hüseynli (Azərbaycan), Ananiya Baladji (Hindistan), Elmira Dadaşova, Yuliya Dubek (Polşa), Amaliya Əliyeva, İvan Abdelmalak (İsrael), Minə Göyçayeva, Sultan Kərimov, Amina Axmedjanova (Qazaxıstan) çıxış ediblər.

# Türkiyəli mütəxəssislərin avtomatlaşdırılmış kitabxana sistemi üzrə təlimləri

Dekabrın 18-dək 23-dək “Koha” avtomatlaşdırılmış kitabxana-idarəetmə sistemində işin təkmilləşdirilməsi məqsədilə türkiyəli mütəxəssislər tərəfindən Bakıda və bir sıra regionlarda kitabxana işçiləri üçün təlimlər keçirilib.

Milli Kitabxananın treninq mərkəzində keçirilən təlimdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan rayon mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS), Sabir adına Şəhər Kütləvi Kitabxanasının əməkdaşları iştirak ediblər. Təlimlər 19 dekabr tarixində Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsini (RMİ), 20 dekabrda Quba-Xaçmaz RMİ-nin MKS-lərini əhatə edib.

Türkiyəli mütəxəssislər 21 dekabrda paytaxtda Səbail rayon MKS, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, 23 dekabrda isə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında sistemin iş vəziyyəti ilə tanış olub, tövsiyələrini veriblər.

Dekabrın 23-də Milli Kitabxanada keçirilən yekun tədbirdə direktor Kərim Tahirov proqramın üstünlüklərindən, iş proseslərinin inkişafı istiqamətində görülən işlərdən bəhs edib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və Yayımlar Baş İdarəsi Texniki xidmətlər şöbəsinin müdiri Hülya Dirican dünyada geniş yayılan “Koha” proqramının 13 ildir qardaş ölkədə tətbiqindən danışıb.

# Xaricdəki Azərbaycan mədəniyyət mərkəzləri rəhbərlərinin toplantısı

Azərbaycanın xaricdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin fəaliyyəti dekabrın 20-də Romada (İtaliya) mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə keçirilən toplantıda müzakirə olunub.



Toplantıda Azərbaycanın Avstriyadakı Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova, direktor müavini Elgün Niftəliyev, Türkiyədəki mərkəzin direktoru Samir Abbasov, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli, mərkəzin direktor müavini Nadir Əlimirzəyev, Almaniyadakı mərkəzdən direktor müavini İsa Məmmədov, ölkəmizin Fransadakı səfirliyinin müşaviri Nigar Hüseynova və İtaliyadakı mərkəzdən direktor müavini Gülnar Tağızadə iştirak ediblər.

Yığıncağın məqsədi xarici ölkələrdəki Azərbaycan Mədəniyyət mərkəzlərinin fəaliyyətinin əlaqələndirilməsi, 2023–2024-cü illərə dair hesabatların dinlənilməsi və 2025-ci il üzrə fəaliyyət planlarının müzakirəsi olub.

Müvafiq dövr üzrə hesabatlar dinlənilib, reallaşan layihələr müzakirə edilib. Mərkəzlərin qarşıdakı ilə dair fəaliyyət istiqamətləri, nəzərdə tutulan tədbir və layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

# “Nizami: daxili aləm” sənədli filminin premyerası

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) sifarişi ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə (1141-1209) həsr edilmiş “Nizami: daxili aləm” adlı sənədli film çəkilib.



Dekabrın 23-də Beynəlxalq Muğam Mərkəzində filmin təqdimat mərasimi keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, digər rəsmilər, tanınmış elm və mədəniyyət xadimləri, filmin yaradıcı heyəti və başqa qonaqlar iştirak ediblər.

Əvvəlcə ekran əsəri haqqında məlumat verilib. Qeyd olunub ki, Mədəniyyət Nazirliyi tərəfindən Nizami Gəncəvi yaradıcılığının əbədiləşdirilməsi və beynəlxalq səviyyədə daha geniş təbliğinə töhfə vermək məqsədilə film sifarişi edilib. Beynəlxalq auditoriya üçün nəzərdə tutulan ekran işi ingilis dilində lentə alınıb.

Sənədli filmdə görkəmli tarixçilər, ədəbiyyat və mədəniyyət xadimlərinin böyük şairin zəngin yaradıcılığı haqqında fikirləri yer alıb. Film Azərbaycan dilində alt yazı ilə təqdim olunur.

Filmin ssenari müəllifi Kristina Lin Morelli, rejissoru və prodüseri Atakan Kerküklü, operatorları Miya Lusia Keyhli Padcet və Ceremi Stefan Fut, montaj redaktoru Bahəddin Dastandır.

**N.Məmmədli**

# Vokalçılar festivalı başa çatıb

Xəbər verdiyimiz kimi, 20–24 dekabr tarixlərində Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) və Bülbül vokal məktəbinin təşkilatçılığı ilə IV Azərbaycan Vokalçıları Festivalı keçirilib.




Festival Azərbaycan vokal musiqisinin inkişafı və təbliği, gənc nəsildə yüksək musiqi zövqünün formalaşdırılması məqsədilə təşkil edilib.

Festivalın ilk günü Azərbaycan Milli Konservatoriyasında tələbələrin iştirakı ilə “Bülbül irsi” adlı konsert və “Azərbaycan milli vokalı” adlı elmi seminar keçirilib. Seminarda konservatoriyanın elmi işlər üzrə prorektoru professor Lalə Hüseynova, Əməkdar artist Ramil Qasımov və başqaları çıxış ediblər.

Ramil Qasımovun rəhbərlik etdiyi Bülbül vokal məktəbi tələbələrinin iştirakı ilə konsert olub.

Festival çərçivəsində daha bir konsertdə Azərbaycan bəstəkarlarının yeni vokal əsərləri təqdim olunub.

ABİ-nin sədri Xalq artisti Firəngiz Əlizadə çıxış edərək festivalın əhəmiyyətindən söhbət açıb.

Əməkdar artistlər İnarə Babayeva, Səidə Şərifəliyeva, gənc ifaçılar Safura Aslanova, Şəms Qəhrəmanova, Aydan Əliyeva, Ərəstun Quliyev, Rauf Məmmədzadə və Nurlan Sadıqovun ifasında Azər Dadaşovun “Zəriflik”, Elnarə Dadaşovanın “Bir çarə”, Azad Zahidin “Mərhəba”, Aysel Kərimin “Qış gecəsi”, Vəfa Bağırzadənin “Eşq”, Aydan Əliyevanın “Ay üzlü nigarım” və başqa romanslar səslənib.

Festivalın yekun konserti Azərbaycan Dövlət Akademik Filarmoniyasında olub.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı vokal janrının inkişafı və yeni vokal ifaçıların tanınmasında festivalın vacib rol oynayacağına ümidvar olduğunu deyib.

Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının simfonik orkestri və xoru musiqi nömrələri ilə çıxış edib. Ramil Qasımov və xor kollektivi Siyavuş Kəriminin “Nəsimi” operasından Nəsiminin ariyasını, teatrın xoru Üzeyir Hacıbəylinin “Koroğlu” operasından “Çənlibel”i səsləndirib.

№96 (2161)
27 dekabr 2024
www.medeniyyet.az

# Xaçmazda şəhidlər haqqında film təqdim olunub

Xaçmaz şəhərində Birinci Qarabağ və 44 günlük Vətən müharibələrində şəhidlik zirvəsinə ucalan dörd qəhrəman döyüşçüyə həsr olunmuş film təqdim edilib.



Filmdə xaçmazlı şəhidlər Rəhim İmamov, Hüseyn Sultanov, Fərid Seyfullayev və Fazil Quliyevin həyat və döyüş yolundan bəhs olunur.

Heydər Əliyev Mərkəzində keçirilən təqdimat mərasimində şəhid ailələri, qazilər, müəllim və şagirdlər iştirak ediblər.

Filmin müəllifi Həsən Arazov, Xaspoladoba kənd tam orta məktəbinin direktoru Tural Məmmədov çıxış edərək Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində keçdiyi şərəfli yoldan, qazanılan şanlı Zəfərdən danışıblar.

Şəhidlər Rahim İmamovun anası Yasəmən İmamova, Fərid Seyfullayevin bacısı Fəridə Seyfullayeva Vətən uğrunda canından keçən qəhrəmanlarla qürur duyduqlarını söyləyib, şəhidlərin xatirəsinə göstərilən diqqət və ehtirama görə təşəkkürlərini bildiriblər.

Çıxışlardan sonra film nümayiş olunub.

# “Nəsillərin rəngli dialoqu”

Sumqayıtda “Nəsillərin rəngli dialoqu” adlı rəsm sərgisi açılıb. Sumqayıt Dövlət Dram Teatrında keçirilən sərgidə Milli Məclisin sədr müavini Ziyafət Əsgərov, deputat Səbinə Salmanova, Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı uğurlardan, torpaqlarımızın işğaldan azad olunmasından, suverenliyimizin bərpasından danışıblar.



Çıxışlarda Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Sumqayıta diqqət və qayğısından da bəhs olunub. Bu diqqət-qayğının şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində rolu vurğulanıb.

Sonra sərgi ilə tanışlıq olub.

# “Səyahət edən namələr”

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi salonunda “Səyahət edən namələr” adlı beynəlxalq rəsm sərgisi açılıb. Sərgi NMR Rəssamlar Birliyi və Bakıdakı Rus Evinin birgə təşkilatçılığı ilə gerçəkləşib.



Naxçıvan MR Rəssamlar Birliyinin sədri Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə muxtariyyətin 100 illiyi qeyd olunur. Rəssamlar Birliyi də bu çərçivədə sayca 10-cu tədbirini keçirir. O cümlədən 3 beynəlxalq sərgi təşkil olunub.

Vurğulanıb ki, “Səyahət edən namələr” beynəlxalq incəsənət layihəsi Rusiyanın Tatarıstan Respublikasından olan rəssam və layihə kuratoru Alfiya İlyasova və Yakutiyadan olan rəssam Natalya Nikolayevnanın təşəbbüsü ilə həyata keçirilir.

Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və başqaları sərgi haqqında fikirlərini bölüşüb, rəssamlara yaradıcılıq uğurları arzulayıblar.

Sonra sərgi iştirakçılarına təşəkkürnamələr təqdim olunub. Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin tələbələri və Azərbaycan və Türkiyədən olan “Turan” vokal-instrumental ansamblının ifasında xalq mahnıları səsləndirilib.

Dekabrın 30-dək davam edəcək sərgidə 10 ölkədən 55 rəssamın əsərləri sərgilənir.

# Yardımlıda həmrəylik festivalı

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Lənkəran-Astara RGİ, rayon İcra Hakimiyyəti və Lənkəran-Astara RMİ-nin birgə təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə “Gənclər və idmançıların həmrəylik festivalı” keçirilib.



Çıxışlardan sonra festival iştirakçıları Yardımlı rayon Mədəniyyət Mərkəzi, Yardımlı Dövlət Rəsm Qalereyası, rayon Uşaq-gənclər inkişaf mərkəzi, Heydər Əliyev Mərkəzi, MKS-nin stendləri ilə tanış olub, rayon idmançılarının nümunəvi çıxışlarını izləyiblər.

Sonda il ərzində yüksək nəticə qazanan idmançılara və məşqçi müəllimlərə, eyni zamanda fəallığı ilə seçilən təşəbbüskar gənclərə təşəkkürnamə və hədiyyələr təqdim olunub.

Tədbir musiqi proqramı ilə davam edib.

# Yerlərdə mədəni həyat – ilin son tədbirləri





Şəki şəhər Heydər Əliyev Mərkəzinin “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində təşkil etdiyi “Yaşıl dünya üçün” adlı rəsm müsabiqəsinə yekun vurulub. Bir ayadək davam edən müsabiqə rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında 4 sinif kateqoriyası üzrə keçirilib. Müsabiqənin yekun mərhələsinə 100-dək şagirdin mövzu ilə bağlı rəsm əsəri təqdim olunub. Hər kateqoriya üzrə ilk üç yeri tutan iştirakçılar mükafatlandırılıblar. Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin müəllim və şagirdlərinin ifasında milli musiqi nömrələri səsləndirilib.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən Quba şəhər 7 saylı körpələr evi-uşaq bağçasında şair Məmməd Aslanın (1939-2015) 85 illiyi ilə əlaqədar ucadan oxu keçirilib. Uşaqlara şairin “Səhəri kim açır” kitabı ucadan oxunub.

***



Qəbələ rayon Mədəniyyət Mərkəzində rayon və kənd yerlərində yaradıcı sənayelərin inkişafına dəstək məqsədilə “Sənət inciləri” adlı sərgi keçirilib. Sərgidə müxtəlif üslublarda əl işləri nümayiş olunub. Bildirilib ki, rayon Mədəniyyət Mərkəzində mütəmadi olaraq keçirilən bu tip sərgilər yaradıcı və mədəniyyət sənayelərinə dəstək məqsədi daşıyır. Sonda sərginin iştirakçılarına Mədəniyyət Mərkəzi tərəfindən diplomlar təqdim olunub.

***

Saatlı Dövlət Rəsm Qalereyasında Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı Esmira Abbasovanın (Esmira Günəş) şəhidlərə həsr etdiyi “Sönməyən ulduzlar” kitabının təqdimatı keçirilib. Kitabda Saatlı rayonunun Çolpı kəndindən olan Vətən müharibəsi şəhidi Cəlal Bayramov barədə də məlumat yer alıb. Təqdimatda valideynləri də iştirak ediblər. Müəllif kitab haqqında məlumat verib. Məktəblilərin ifasında şeirlər səsləndirilib, Saatlı şəhidlərinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

***

Neftçala rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları 5 saylı körpələr evi-uşaq bağçasının qonağı olub. Görüşdə balacalar üçün maraqlı yarışlar, intellektual oyunlar təşkil edilib. Hər uşaq öz istedad və bacarığını nümayiş etdirib, şeirlər söyləyib, mahnılar oxuyub, rəqs ediblər. Şaxta baba və Qar qız müxtəlif hədiyyələrlə uşaqları sevindirib. Sonda uşaqlar “Ağıllı kirpi” cizgi filmini izləyiblər.

***



Oqtay Kazımı adına Astara şəhər Uşaq musiqi məktəbində “Oqtaylı nəğmələr” adlı tədbir keçirilib. Xalq artisti, bəstəkar Oqtay Kazımının (1932-2010) anadan olmasının 92-ci ildönümü münasibətilə təşkil olunan tədbir bəstəkarın “Çahargah” fantaziyası” ilə başlayıb. Sonra bəstəkarın həyat və fəaliyyətindən, sənət korifeylərinin ifasında dünyanı gəzən mahnıları haqqında məlumat verilib. Tədbirdə O.Kazımının müxtəlif janrlı əsərləri məktəbin instrumental ansamblının ifasında səsləndirilib.

***

Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin (1909–1974) 115 illik yubileyi ilə əlaqədar Qazax Dövlət Rəsm Qalereyasında rəsm sərgisi təşkil edilib. Sərgidə dərnək üzvlərinin mövzu ilə bağlı rəsmləri nümayiş olunub.

***

Lerik rayon Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran regional bölməsi, Lerik Rayon İcra Hakimiyyəti, Lerik rayonu üzrə Təhsil sektoru ilə birgə “Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?” mövzusunda tədbir təşkil olunub. Çıxışlarda qızların təhsil almasının ümumilikdə cəmiyyət üçün əhəmiyyəti vurğulanıb, dini mətnlərdə də təhsilə dəyər verildiyi diqqətə çatdırılıb. Mövzu ətrafında müzakirələr aparılıb.

**Hazırladı: N.Məmmədli**

# “Tilsimli sandıq”



Lənkəran Dövlət Dram Teatrında “Tilsimli sandıq” adlı Yeni il tamaşasının premyerası olub.

Tamaşanın ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar mədəniyyət işçisi Lalezar Hüseynova, rejissoru Emil Əskərov, quruluşçu rəssamı Tərlan Sadıqov, rəssamları Fuad Babazadə, Sevən Həsənli, musiqi tərtibatçısı Vüqar Fərəcov, rejissor assistenti isə Nuranə Nəcəfovadır.

Rolları Rauf Zeynalov, Təranə Fərəcova, Səyad Əliyev, Emin Fərzullayev, Gülər Kərimova, Şəbnəm Hüseynova, Aysel Babazadə, Ayşən Əsədova, Əliza Şahbazi, Vəfa Hacızadə, Teymur Hacızadə, Elvin Məmmədov ifa edirlər.

Tamaşa teatrsevərlər tərəfindən alqışlarla qarşılanıb.

# Mingəçevir teatrı Ağdaşda “Sadığın toyu”nu edib



Mingəçevir Dövlət Dram Teatrı “Sadıq evlənir” tamaşası ilə ağdaşlıların qonağı olub. Sahib İbrahimlinin “Sadığın toyu” pyesi əsasında hazırlanan tamaşa teatrın direktoru Əməkdar artist İntiqam Soltan tərəfindən yenidən quruluş verilərək təqdim edilib.

Tamaşanı Ağdaş Rayon İcra Hakimiyyəti, Mərkəzi Aran RMİ-nin rəhbərliyi, rayon ictimaiyyətinin nümayəndələri və digər qonaqlar izləyiblər.

Komik hadisələrlə zəngin olan səhnə əsəri ağdaşlı tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# “Araz sahilində doğan günəş”

## Naxçıvan teatrı Bakı səhnəsində

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı “Araz sahilində doğan günəş” tamaşası ilə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində çıxış edib.



Naxçıvan MR-in Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Həsənəli Eyvazlının qələmə aldığı eyniadlı dram əsasında hazırlanan səhnə əsəri uzun müddətdir teatrın repertuarındadır.

“Araz sahilində doğan günəş” tamaşası ötən əsrin əvvəllərindən regionda, eləcə də ölkəmizdə baş verən ictimai-siyasi hadisələr, muxtariyyətin qazanılması uğrunda aparılan mübarizədən bəhs edir.

Tamaşanın quruluşçu rejissoru Mir Qabil Əkbərov, quruluşçu rəssamı Naxçıvan MR-in Əməkdar rəssamı Səyyad Bayramovdur. Səhnə əsərində Xalq artistləri Rza Xudiyev (Tağı Səfiyev), Rövşən Hüseynov (Kərbəlayı Kərəm), Həsən Ağasoy (Bağır kişi), Əməkdar artistlər Əli Əliyev (Nəriman Nərimanov), Behruz Haxverdiyev (İbrahim Əbilov), Vidadi Rəcəbli (Veysəl bəy), Əbülfəz İmanov (Çiçerin), Nazlı Hüseynquliyeva (Müşkünaz arvad), Naxçıvan MR-in Əməkdar artisti Səməd Canbaxşiyev (Mustafa Kamal paşa), Uğur Nəsirli (Mirzə Davud Hüseynov), Məmməd Mehdiyev (Behbud ağa Şahtaxtinski), Ələsgər Quliyev (Stalin), Anar Eyvazov (Yusif Kamal bəy) və digər aktyorlar rol alıblar.

Tamaşa Ümummilli lider Heydər Əliyevin Naxçıvanın muxtariyyəti ilə bağlı səsləndirdiyi tarixi fikirləri ilə sona çatır.

# Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi 100 yaşında

Azərbaycan Yazıçılar Birliyinin (AYB) Lənkəran bölməsi və Lənkəran şəhər Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin yaradılmasının 100 illiyi və “Xan evi” kimi tanınan binanın tikilməsinin 111 illiyi münasibətilə “Vətən tarixi ədəbi əsərlərdə” adlı tədbir keçirilib.



Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində keçirilən tədbirdə açılış sözü söyləyən muzeyin direktoru tarix üzrə fəlsəfə doktoru, Lənkəran Dövlət Universitetinin dosenti Leyla Məcidova muzeyin və binanın tarixi ilə bağlı geniş məlumat verib.

Daha sonra Lənkəran şəhər Mədəniyyət Mərkəzinin direktoru Anar Kəkəyev, AYB Lənkəran bölməsinin sədri Qafar Cəfərli, AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri Vaqif Yusifli, muzeyin yaradıcısı Mirzə Ağəli Əliyevin nəvəsi Kübra Süleymanova hər iki əlamətdar tarixlə bağlı fikir və düşüncələrini bölüşüblər.

Sonda mərkəzin “Babalar” xor kollektivinin ifa etdikləri Lənkərana həsr olunan şeirlər və musiqi nömrələri tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# Siyəzəndəki “Şəhərgah”da arxeoloji qazıntılar



“Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində olan “Şəhərgah” yaşayış yerində aparılan arxeoloji qazıntı işləri nəticəsində yeni nümunələr əldə olunub.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun sektor müdiri Müzəffər Hüseynovun rəhbərliyi ilə noyabrın 20-də başlayan qazıntı işləri bir ay davam edib. Arxeoloqlar “Şəhərgah” yaşayış yerinin ilk dəfə olaraq Erkən Orta əsrlərə yanaşı, Erkən Tunc dövrünə aid olduğunu da müəyyənləşdiriblər. Bu da ərazidə yaşayışın 3 min ildən çox yaşı olduğunu söyləməyə əsas verir.

Yaşayış yerinin bir hissəsi Gilgilçay səddinə söykənir. Qazıntı sahəsindəki abidənin bir metrlik üst təbəqəsi İlk Orta əsrlər dövrünə aiddir. Buradan həmin dövrə xarakterik müxtəlif həcmli saxsı qablar və daşdan hazırlanmış əmək alətləri aşkar edilib. Altı metr uzunluğundakı bəzi divarlar günümüzədək gəlib çatıb.

# Nərgiz Əliyarova: “Bakıda çıxış etmək mənim üçün daha çətindir”

## “Nyu-Yorkda keçirdiyimiz müsabiqənin əsas məqsədi Azərbaycan musiqisini plagiatdan qorumaq və təbliğ etməkdir”

Belə insanlar haqqında deyirlər: sənətkar peşəkar olmaqla bərabər, həm də vətənsevərdir, nə qədər uzaqda olsa da, qəlbi vətənlə döyünür.

Tanınmış pianoçu, respublikanın Əməkdar artisti, Bakı Musiqi Akademiyasının professoru, İtaliyada pianoçuların beynəlxalq müsabiqəsinin laureatı, Şopenin əsərlərinin ifasına görə Polşa dövləti tərəfindən təltif olunmuş, hazırda ABŞ-də yaşayan və yaradıcısı olduğu Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti ilə Azərbaycan musiqisini təbliğ edən layihələr həyata keçirən Nərgiz Əliyarova bu günlərdə vətənə gəlmişdi.

Filarmoniyada müəllimi, mərhum professor Elmira Səfərovanın 90 illik yubileyinə həsr edilmiş konsertdə çıxış edən pianoçu dekabrın 21-də Musiqi Mədəniyyəti Dövlət Muzeyinin də qonağı oldu.

Muzeyin direktoru Alla Bayramova tədbirə toplaşanları salamlayaraq bildirdi ki, artıq yeddi ildir Nyu-York şəhərində uğurlu pianoçu, pedaqoq və ictimai xadim karyerası qurmuş Nərgiz Əliyarova ilə bu görüş sənətsevərlər üçün əlamətdar hadisədir.

Muzeyin şöbə müdiri Xanım Abdinova Nərgiz Əliyarovanın həyat və yaradıcılıq yolundan söz açdı. Diqqətə çatdırdı ki, pianoçuluq istedadı Bülbül adına Orta İxtisas Musiqi Məktəbində təhsilə başladığı vaxtdan özünü göstərən Nərgiz xanım doqquz yaşında böyük səhnəyə çıxıb. Müxtəlif musiqi kollektivləri ilə Azərbaycanda və xaricdə çıxışlar edib. 15 yaşında verdiyi konsertin dirijoru maestro Niyazi olub. Bülbül adına məktəbi qızıl medalla bitirib və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) fortepiano sinfinə qəbul edilib. Konservatoriya təhsilini də fərqlənmə diplomu ilə başa vurduqdan sonra burada müəllim, baş müəllim, dosent, professor qismində pedaqoji fəaliyyət göstərib. “Azərbaycan bəstəkarlarının skripka və fortepiano üçün sonataları” mövzusunda dissertasiya müdafiə edib. Konsert fəaliyyəti akademik və klassik musiqinin bütün təzahürlərini əhatə edir. Nyu-Yorkun və Vaşinqtonun nüfuzlu konsert salonlarında keçirilən konsertlərində Azərbaycan bəstəkarlarının əsərlərinə də xüsusi yer ayırır.

Sonra söz Nərgiz Əliyarovaya verildi. Musiqiçi minnətdarlıq hissi ilə tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, Alla



Bayramova ona yaradıcılığı ilə bağlı sənədləri muzeyə təhvil verməyi təklif edib və o, təklifi təəccüb, sevinc və qürur hissi ilə qəbul edib.

Alla Bayramova isə öz növbəsində əlavə etdi ki, bu sənədlər Azərbaycanın müasir musiqi mədəniyyətinin tərkib hissəsidir.

N.Əliyarova ABŞ-yə köçəndən sonra təsis etdiyi Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin işindən, cəmiyyətin nəzdindəki studiyada pedaqoji fəaliyyətindən danışdı. Vurğuladı ki, cəmiyyət başda Azərbaycan musiqisi olmaqla dünya musiqiçilərinin irsinin təbliği ilə məşğuldur. Cəmiyyətin ən böyük və maraqlı layihəsi isə bu il dördüncüsü keçirilən beynəlxalq bəstəkarlıq müsabiqəsidir.

Daha sonra musiqiçi onun istəyi ilə Rüfət Xəlilovun piano üçün yazdığı və ilk dəfə 8 Noyabr – Zəfər Günündə Nyu-Yorkda səslənən “Sarı gəlin” əsərini, ifaçılıq palitrasında özünəməxsus yer tutan Frederik Şopenin, Faiq Sücəddinovun əsərlərini ifa etdi. Şopenin məşhur “Noktürn” əsərini pianoçu şəhidlərimizin ruhuna ithaf etdi. Nərgiz Əliyarova ilə görüşə gələnlər onun təqdimatında Arif Məlikovun və Ferens Listin əsərlərinin çalğısının videohəlli olan iki yeni klipin premyerasının da iştirakçısı oldular.

Nərgiz Əliyarovanın sənət dostları və sənətinin pərəstişkarları ürək sözlərini dilə gətirdilər.

***

Tədbirdən sonra onunla “Mədəniyyət” qəzeti üçün qısa müsahibə etdik.

*– Nərgiz xanım, söhbətimizə təşəbbüskarı olduğunuz bəstəkarlıq müsabiqəsinə görə təşəkkürlə başlamaq istəyirəm. Necə bir yol keçib bu müsabiqə?*

– Çox sağ olun. Artıq dördüncü dəfə uğurla baş tutan müsabiqənin özünəməxsusluğu hər bir iştirakçının təqdim etdiyi əsərlərdə mütləq şəkildə Azərbaycan musiqisindən bəhrələnməsi və bunu öz bəstələrində qeyd etməsidir. Müsabiqənin məhz bu xassədə keçirilməsi ideyası Üzeyir bəyin məşhur bir bəstəsini, “O olmasın, bu olsun” operettasından “Deyirlər ki, toy olacaq” parçasının erməni musiqi əsəri kimi eşidəndə yaranmışdı.



Mən belə açıq-aşkar plagiat faktına çox əsəbiləşmişdim. Və belə qərara gəldik ki, rəfiqəm, bəstəkar, Bakı Musiqi Akademiyasının dosenti Lalə Cəfərova Üzeyir bəyin həmin bəstəsinə istinadən bir variasiya, “Deyirlər ki, toy olacaq” kompozisiyası mövzusunda fantaziya yazsın, mən də bütün dünyada bu əsəri ifa edib onun gerçək müəllifinin Üzeyir bəy olduğunu, ermənilərin isə plagiata yol verdiklərini hamıya sübut edim. Və belə də etdik. Tədricən anladım ki, bu təşəbbüsü davamlı bir aksiyaya çevirmək daha effektiv olar. Beləliklə, bu müsabiqə yarandı.

Birinci müsabiqə Üzeyir Hacıbəylinin əsərlərinə həsr edilmişdi və əsərlər Bakıda Üzeyir Hacıbəyli festivalında səsləndikdən sonra Nyu-Yorkdakı Linkoln Mərkəzində də təqdimatı olmuşdu. Üzeyir bəyin on əsəri iştirakçı bəstəkarlara təklif edilmişdi, onların da bəziləri ya əsərin bir hissəsini öz bəstəsinə daxil edib yeni bir fantaziya, variasiya, bəziləri isə Üzeyir bəyin musiqisindən ilhamlanaraq və bunu bəstəsinin titul vərəqində qeyd edərək əsər yazırdı. Birinci müsabiqədə 25 ölkədən 50 bəstəkar iştirak etdi. İkinci müsabiqə Fikrət Əmirovun yaradıcılığını özündə ehtiva edirdi. Üçüncü müsabiqə birinci və ikinci müsabiqədə qalib seçilmiş əsərlərin dünya ifaçılarının çalğısında təqdimatından ibarət oldu. Və hələlik sonuncu olan dördüncü müsabiqə Azərbaycan xalq mahnılarından ilhamlanıb yeni musiqi əsərləri bəstələyən musiqi yaradıcılarını bir araya topladı. Bunların böyük bir hissəsi plagiata məruz qalmış xalq mahnılarımız idi. Azərbaycanın tarixi torpaqlarını, ərazi bütövlüyünü musiqidə əks etdirən “İrəvanda xal qalmadı”, “Şuşanın dağları” kimi mahnıları da bilərəkdən müsabiqə proqramına daxil etmişdik ki, dünya ictimaiyyəti həqiqəti bir daha musiqi dili ilə də eşitsin. Bu müsabiqənin əsas məqsədi Azərbaycan musiqisini plagiatdan qorumaq və təbliğ etməkdir. Onun Nyu-Yorkda keçirilməsi bəstəkarların marağını daha da artırır. Qalib bəstələrin hamısını nəşr etdirib Nyu-York Konqreslər Kitabxanasının ştrix kodunu alıb toplu olaraq qeydiyyatdan keçirdirik.

*– Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin layihələri arasında hansını xüsusi qeyd edə bilərsiniz?*

– Mənim üçün ən önəmli gerçəkləşmiş ideyalardan biri 2022-ci ildə Fikrət Əmirovun 100 illiyinin məhz böyük bəstəkarın doğum günündə, noyabrın 22-də “Karnegi-Holl”un böyük zalında qeyd edilməsi idi. Bildiyimə görə, bu zalda o vaxta qədər Azərbaycanla bağlı tədbir olmamışdı. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi sayəsində biz bunu reallaşdırdıq. Başqa bir yaddaqalan hadisə kimi Vaşinqtonun Kennedi Mərkəzində solo konsertimi qeyd edə bilərəm. “İpək Yolu” proqramı Azərbaycan, türk və İran bəstələrindən tərtib edilmişdi və böyük maraqla qarşılandı”.

*– Bu yeddi il ərzində Nyu-York və Bakı musiqisevərləri arasında müqayisə aparmaq imkanınız olubmu?*

– Bakıda çıxış etmək mənim üçün daha çətindir. Təəssüf ki, bizdə klassik musiqi dinləməyi sevənlər o qədər də çox deyil. Bakıda klassik musiqi konsertlərinə gələnlərin əksəriyyəti musiqiçilərdir. Bu isə ifaçıdan ikiqat məsuliyyət tələb edir. Nyu-Yorkda isə klassik musiqi konsertlərinə musiqiçi olmayanlar daha çox gəlir. Özü də əsasən yaşlı nəslə aid insanlar. Və mən bir məqamı hər konsertdə müşahidə edirəm: hələ konsert başlamazdan əvvəl zalda ifaçıya bir təşəkkür ovqatı hiss olunur. Bu, əlbəttə, çox ruhlandırıcı bir ab-havadır...

***

Söhbət əsnasında Nərgiz xanım dekabrın 22-də ABŞ-də “Karnegi-Holl”da keçirilməsi nəzərdə tutulan növbəti solo konsertinin və azərbaycanlı həmkarları ilə yeni müştərək işlərin əhvalında yola düşməyə hazırlaşdığını dedi. Vətənpərvərliyi real işlərində görünən, eşidilən, dinlənilən və duyulan musiqi xadiminə uğurlar arzu edirik.

**Samirə Behbudqızı**

# “Hər obrazla məşq prosesində dil tapmasan...”

## Əbülfət Salahov: “Yaxşı aktyor pis rejissor olmaq üçün niyə cəhd etsin ki?”

“Nə gəlməz oldun?!” Pianoda bu mahnını ifa edirdi. Vədələşdiyimiz vaxtdan cəmi 2-3 dəqiqə əvvəl gəlibmiş. Sonradan bildim ki, kiçik məşq otağındakı qara piano onun bəyaz hisslərinin şirmayı dillər üzərindəki ifadəsidir. İmkan tapan kimi bura gəlir və bildiyi melodiyaları ifa edir. Bu dəfə ruh aləminə elə qapılmışdı ki, gəlişimizi hiss eləmədi. Sonda biz onu, o da bizi alqışladı. Üzünə qonan xəfif ani təbəssüm yerini qış ayazından bezar olan donuq kədərə verdi. O hissi, yəqin ki, bilirsiniz – an lazımdır ki, günəş çıxsın və həmin buzları əritsin... Deyir ruh adamları, zaman və mühitdə özünü qərib hiss edənlərin gün-güzəranı elə budur.

Müsahibim Şəki Dövlət Dram Teatrının aktyoru Əməkdar artist Əbülfət Salahovdur. Emosional təsir gücünə malik oyun texnikası var. Tamaşaçı ilə ünsiyyətə çətin girir və onun fərqinə varılan ana qədər bütün texniki imkanlarını işə salır.

Əslində, söhbətimiz də elə o cür oldu. Buna ikihissəli monotamaşa da demək olar. Birinci pərdədə mən, ikincisində o danışdı. Söhbət onun xeyrinə bitdi.

*– Əbülfət müəllim, yaxşı dinləyicisiz, yoxsa dinlənilən?*

– Dinləyici. Amma danışdıranda danışa da bilirəm. Məsələn, o vaxtlar bir veriliş vardı. Üz-üzə oturub danışırdılar. Suallar elə olurdu ki, susmaq mümkün deyildi.

*– Arifə bir işarə (gülürük). Elə isə söz öndədir, yoxsa əməl?*

– Aktyorun sözü nədir? Söz və hərəkət. Əgər onlar bir-birini tamamlayırsa, harmoniya yaranırsa, hə...

*– Həyata baxışınız necə?*

– Bu barədə bir xeyli dərəcədə taleyə inanıram.

*– Hər şeyi taleyin, şansın boynuna qoymaq bizi mübarizə üçün məsuliyyətdən yayındırmış olmur?*

– Boynumuzdan atmırıq. Amma elə şeylər var ki, sən istəməsən də, taleyinlə razılaşmalısan. Müqayisələr səni xoşbəxt etmirsə, həyat və sənət taleyindən məmnun deyilsənsə, özünü uçurumun dibində tapmamaq üçün o dediyimlə razılaşmalısan. Mənə elə gəlir ki, yaşlandıqca şükür etmək də lazımdır.



*– Şükür ancaq yaşlananda lazımdır?*

– Axı həyatı dərk edirsən. Anlayaraq yaşamaq çətindir. Hətta bəzən arzulayıram ki, nə olardı, bunları bilməzdim, dərk etməzdim. Amma adımız insandır...

*– Səhnəyə gəliş, ona çıxış yolu kimi baxmaq da o dərkdən qaynaqlandı?*

– Yox, bu, çox sonralar oldu. Məsələn, əvvəllər “necə oldu ki, bu sənətə gəldim” sualına cavab tapa bilmirdim. Hətta “niyə o qədər gözəl sənətlər qaldığı halda aktyorluğu düşündüm” sualının cavabını sonralar, aktyor kimi qəbul edildikdən sonra tapdım sanki. Sonra başladım uşaqlığımı analiz etməyə və anladım ki, hə, deməli, düz gəlmişəm.

*– Deməli, həm də başqalarının fikri sizi yönləndirir?*

– Yox, amma həm də realdır. Sənətdə var olmaq üçün ən əvvəl harada və nə etdiyini anlamalısan. Cavanlıqda insan daha çox ümid edir, sabaha inanır. Elə bilir ki, sabah daha yaxşı olacaq. Amma artıq anlayırsan ki, o şey baş vermir və sən inanmırsan.

*– Bunun səbəbi kimdir, bizmi?*

– Yox, özüm. Qənaətim budur ki, özümdən narazıyam. Heç cür özümlə barışmıram, razılaşmıram.

*– Bu özünə qarşı tələbkarlıq deyil, yəqin ki...*

– Özünə qarşı tələbkarlıq vacibdir və bu məndə var. İndi bunun başqa mərhələsindəyəm.

*– Məncə, həyatı bu qədər ciddiyə almayın. Yaşınız da çox deyil.*

– Deyəsən, həyat yaşım ömür yaşımdan çox görünür. Nə deyim...

*– Ruhunuzun melodiyasını ifa elədiniz bayaq...*

– Hansı ladda olduğumu bilmək istəyirsinizsə, elə siz gələndə ifa etdiyim...

*– Mən də deyirəm nə olub, bütün gedəcək olanlar getməlidir.*

– Hm, bu qədər qəti? Şükür, həyatımda hər şey qaydasındadır, umacaqlı deyiləm. Sadəcə, arada adam öz-özünə düşünür. Məsələn, heç vaxt xoşum gəlmir ki, mənə kiminsə yazığı gəlsin. Zəif görünüm. Amma lirika, bu kədər özü məni gücləndirir. Bədən ömrümüz nə zamansa bitəcək, amma ruhumuz...

*– Gəlin, bizi birləşdirən teatrdan danışaq: dünənin Şəki teatrı və siz.*

– Rəhmətlik Hüseynağa Atakişiyev dedi gəl səni göndərişlə Bakıya yola salaq, get oxu, ali təhsil al. Ruhu şad olsun, iki dəfə kəskin tələb qoydu qarşıma. İndi peşmanam, düzdü. Amma getmədim. Həmin zamanlar teatr davamlı qastrollarda olurdu. Mən də o parıltıdan kənarda qalmağa, kollektivdən qopmağa dözə bilmədim...

*– Bunu ən çox hansı məqamlarda hiss edirsiniz?*

– Əslində, hansısa vəzifəyə-filana iddiam olmayıb və yoxdur da. Amma bir dəfə bir hal oldu. Keçmiş məmurlardan biri teatra gəlmişdi. Tamaşaya baxdı, kollektivlə tanış oldu. Təhsilimi xəbər aldı. Həvəskarlıqdan gəldiyimi deyəndə “hə, otur” deyib qəribə bir reaksiya verdi. Maraqlıdır ki, ona qədər rolum, ifaçılığım haqqında yüksək fikir bildirdiyi halda diplomsuzluğum onda qəribə təəssürat yaratdı və mən buna görə pis oldum. Amma adi hallarda təhsilsizliyim mənə mane olmayıb. Aktyor ola bilmişəmsə, bəsimdir.

*– Aktyor kimi səhnəyə çıxanda hansı hissi keçirirsiniz?*

– Obraza o qədər daxil oluram ki, özümü tamam unuduram. Ustalıq o zaman olur ki, sən bir kuklaçı kimi obrazını əlində idarə edirsən, o səni yox.

*– Prosesdə özünüzü görə bilirsiniz?*

– Bu barədə çox düşünməmişəm. Amma mənə elə gəlir ki, hər obrazla məşq prosesində dil tapmasan, rejissorla işdə o dialoqa nail olmasan, yaxşı nəticə alınmaz.

*– Rejissor sizin üçün kimdir?*

– Tamaşaçının gözü.

*– Mərhələlərə bölsək...*

– Bölsək, gərək birinci rejissorunu, sonra da özün-özünü qane edəsən ki, sənin obrazın, hər yeni tipajın tamaşaçı üçün əlçatan, maraqlı olsun.

*– Aktyorun qəlibə salınması da var...*

– Ampluadan acığım gəlir. İstəmirəm mənə bu bölgü ilə münasibət bəsləsinlər. Eyniyyəti sevmirəm. Bütün yaşayışımda belədir. İstəmirəm ki, məni hansısa janrın aktyoru kimi xarakterizə eləsinlər. Daim buna qarşı özüm-özlüyümdə mübarizə aparıram.

*– Prosesin ən gözəl tərəfi hansı məqamdır?*

– Rolu, onun ifadəsini tapanda. Özümü lap suda balıq kimi hiss edirəm.

*– Deyəsən, rollarınızı siyahıya almırsınız?*

– Haqlısınız. Yaşayışımızdır, oynayırıq, özümüzü bu işdə hər dəfə sınayırıq. Qalan məsələlər unudulur.

*– Bəzən aktyorların rejissorluq iddiaları da olur...*

– Gərək ona getməsinlər. Yaxşı aktyor pis rejissor olmaq üçün niyə cəhd etsin ki? Yarat, yaşat, özün də zövq al, tamaşaçılar da. Mənə neçə dəfə rejissor kimi fəaliyyət imkanı veriblər, istəməmişəm. Olduğum məqamdan məmnunam. Özümü ifadə meydanı tapmışamsa, üstəlik, çalışdığım yerdə yaradıcı ab-hava varsa, özümü niyə başqa “boşqab”da hiss etməliyəm?

*– Yaradıcılığınızda klassik dramaturgiya nümunələri daha çoxdur. Klassikada ifadə daha rahatdır, yoxsa müasir nümunələrdə?*

– Bu, rejissorun baxışından asılıdır. Bir də sənin onun ifadə formasını hansı tərəfdən görməyindən də önəmlidir. Klassikada da, müasir əsərdə də çalışıram özüm olum, hamının oynadığı formadan qaçıram. Bu mənim üçün daha asandır. Hər yeni obrazıma hər kəsin baxmadığı tərəfdən baxır və çox vaxt arxa planda ştrix kimi verilən məqamı üzə çıxarıram. Bu, klassikada daha vacibdir. Mənə ən ləzzət edən nüans bir obrazı təpədəndırnağa yaratmaqdır. Bu anlamda yeni nümunələr, yeni qəhrəmanlar daha maraqlıdır.

*– “Oynamaq istədiyim rollar” nostalgiyanıza baxaq?*

– Baxmayaq (gülür). Açığı, olmayıb, yoxdur belə bir nisgilim. Həmişə oynamışam, prosesdə olmuşam.

*– Oğlunuzla bir teatrda çalışırsınız, yəqin, tərəf-müqabil də olursunuz. Kim kimi daha çox izləyir?*

– Xəyal (teatrın aktyoru və truppa müdiri Xəyal Salahov) ilə ara-sıra o soruşanda hansısa rolundan, hansısa tamaşadan danışırıq. Baxanlar elə bilir çox söhbət eləmirik. Amma bizim danışmağa o qədər sözümüz olur ki, teatrla bağlı məsələlərə ya vaxt qalmır, ya da özümüz vaxt ayırmırıq...

*– Onun ifaçılığını bəyənirsiniz?*

– Bütün düşündüklərimi desəm, necə olacaq?

*– Eybi yox, ikilikdə bunları daha çox danışarsınız. İndi isə daxili monoloqa keçib sözümüzə vergül qoyaq...*

– İllərdir böyük Hüseyn Cavidin “İblis”ində İblisin monoloqunu hazırlayıram. Amma yenə də razı deyiləm. Hər dəfə nə isə əlavə edirəm, nəsə axtarıram. İstərdim ki, onu lentə alım. İmkan olsa, tamaşaçı önündə də oxuyum. Sözsüz ki, fonda öz istədiyim melodiya ilə.

O, İblisin monoloqunu deyir, mən alqışlayıram.

Yenidən piano arxasına keçir. Bu dəfə Şövkət Ələkbərovanın repertuarından “Pıçıldaşın, ləpələr”i ifa edir...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Xalq rəssamı Tofiq Ağababayev vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Milli təsviri sənətimizdə özünəməxsus yeri olan Xalq rəssamı, pedaqoq Tofiq Ağababayev 20 dekabr 2024-cü il tarixində, ömrünün 97-ci ilində vəfat edib.



Tofiq Məmmədəli oğlu Ağababayev 8 sentyabr 1928-ci ildə Bakıda anadan olub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində və Sankt-Peterburq Rəssamlıq Akademiyasında təhsil alıb. 1966–1968-ci illərdə Bakı şəhərinin ilk baş rəssamı vəzifəsində çalışıb, şəhərin estetik görünüşünə töhfə verən yeniliklərin müəllifi olub. Paytaxtımızın simvolik açarının düzəldilməsi də onun adı ilə bağlıdır.

Tofiq Ağababayev uzun illər Azərbaycan Rəssamlıq Akademiyasında fəaliyyət göstərib, neçə-neçə nəslə sənətin sirlərini öyrədib.

Monumental dekorativ-tətbiqi sənət, qrafika, keramika və boyakarlıq sahəsində əsərləri onun yaradıcılığında xüsusi yer tutur. Bakı Dövlət Sirkindəki “Azərbaycan sirki” mozaik lövhəsi, Dövlət Statistika Komitəsinin, Memarlıq və İnşaat Universitetinin idman salonunda mozaik işləri, “Azərbaycan lirikası” triptixi bu qəbildəndir. Rəssamın portretlər qalereyasında da “Şah İsmayıl Xətai”, “Dədəm Qorqud”, “İlyas Əfəndiyev” və başqa diqqətəlayiq əsərlər çoxdur.

Tofiq Ağababayevin əsərləri Azərbaycanla yanaşı, Rusiya, ABŞ muzeylərində, Kanada, Türkiyə və Fransada şəxsi kolleksiyalarda saxlanılır.

Sənətkarın yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 1992-ci ildə “Əməkdar incəsənət xadimi”, 2006-cı ildə “Xalq rəssamı” fəxri adlarına, 2008-ci ildə Prezidentin fərdi təqaüdünə layiq görülüb. 2023-cü ildə “Şöhrət” ordeni ilə təltif edilib.

Mədəniyyət Nazirliyinin kollektivi Xalq rəssamı Tofiq Ağababayevin vəfatı ilə əlaqədar mərhumun ailəsinə, yaxınlarına və həmkarlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

№96 (2161)
27 dekabr 2024
www.medeniyyet.az

# Nəsrimizin parlaq imzalarından – İsi Məlikzadə

XX əsr Azərbaycan nəsrində özünəməxsus üslubu ilə seçilən qələm sahiblərindən biri də tanınmış yazıçı, dramaturq, ssenarist İsi Məlikzadə olub. O, 35 illik yaradıcılıq fəaliyyəti dövründə qarşılaşdığı və müşahidə etdiyi həyat gerçəkliklərini çox maraqlı şəkildə oxucuya çatdırıb. Sadə insanların, ziyalıların dolğun obrazını yaradıb. Bu il yazıçının anadan olmasının 90 illiyidir.

İsi Abbas oğlu Məlikzadə 1 may 1934-cü ildə Ağcabədi rayonunun Xalfərəddin kəndində dünyaya göz açıb. Orta məktəbi bitirəndən sonra, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) Neft-kimya fakültəsinə qəbul olunur. 1957-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurur, təyinatla Bakıda Neft Mədənləri İdarəsində əmək fəaliyyətinə başlayır. Təyinat müddəti başa çatdıqdan sonra doğma yurdu Ağcabədiyə qayıdır. 1961-ci ildə Bakı Şəhər Qaz İdarəsinin layihə bürosunda işə düzəlir.

Gənc yaşlarından ədəbi yaradıcılığa maraq göstərən İsi Məlikzadə çalışdığı müəssisələrdə sovet cəmiyyətinin miqyasını, onun fəaliyyət mexanizmini müşahidə edir, sonradan ədəbi materiala çevirirdi. O hələ tələbə ikən "Kirpi" jurnalı ilə əlaqə saxlayır. Salam Qədirzadə ilə dostluq edir. Elə ilk məqaləsi də "Kirpi" jurnalında dərc edilir. "Pambıqçılıq" adlı ilk hekayəsi isə 1957-ci ildə "Ağcabədi pambıqçısı" qəzetində dərc olunur. Hekayələri oxucular tərəfindən maraqla qarşılanır. Ədəbi aləmdə istedadlı gənc kimi diqqət çəkir. Gənc İsi 1960-cı illərin ikinci yarısından daha ciddi mövzulara müraciət edir. 1964-cü ildə "Həsrətin sonu" adlı kiçik hekayələrdən ibarət kitabı işıq üzü görür. Bu uğur onun üzünə dövri mətbuat qapılarını taybatay açır.

1967-ci ildə komsomolun və Yazıçılar İttifaqının müştərək orqanı kimi "Ulduz" jurnalı təsis edilir. Şair Əhməd Cəmil jurnala redaktor təyin olunur. Ədəbi mühitdəki həmfikirlərinin dəstəyi sayəsində İsi Məlikzadə jurnalda işə başlayır.

O, nizam-intizamı və istedadı ilə rəhbərliyin diqqətini çəkir. Jurnalın məsul katibi təyin edilir. Bir il sonra üç povestinin yer aldığı "Özgə anası" kitabı "Gənclik" nəşriyyatında çap olunur. 1968-ci ildə Yazıçılar İttifaqına üzv qəbul edilir. 1973-cü ildə "Ulduz" jurnalına yeni redaktor təyin edilir və o buradakı işindən ayrılmalı olur. Bir müddət işsiz qalır, maddi çətinlik onu üzür. Bu vəziyyət həm də sərbəst yaradıcılıq işinə çətinliklər yaradır.

Nəhayət, "Azərnəşr"də redaktor vəzifəsinə təyin olunur. Yazıçı 1980-ci ildə bu işindən də ayrılır. Bir daha doğma Ağcabədiyə dönür. Burada qaldığı müddətdə "Gümüşgöl əfsanəsi" adlı povestini qələmə alır. Müəllif bu əsərin ərsəyə gəlməsində əfsanələrdən məharətlə bəhrələnir. Əslində, o, əsərdə öz taleyinin enişli-yoxuşlu və ağrılı-acılı anlarını ifadə edir. Əsərdə isə Orxan, Ağabəyim və Bənövşənin taleyi əks olunur... Bu talelərin hər-biri təbii həyat gerçəklikləri ilə bağlıdır. Yazıçı Orxanı özünün oxşarı kimi görünməsin deyə, İçərişəhərli bir ziyalı kimi təqdim edir. Orxanı bütün təfərrüatı ilə bir şəhərli gənc kimi tərifləyir. O, İçərişəhərdə köhnə məhəllədə dünyaya göz açıb. Ali təhsilli xalçaşünas alimdir. Anası Fatma isə sahə həkimidir. Orxan xalçaçılıq üzrə elmi iş yazır. Elmi rəhbəri Xürrəm müəllim ona məsləhət edir ki, tez-tez ucqar kəndlərə get. El sənətkarları və istedadlı xalçaçılarla görüş. Onların təcrübəsi, rəng və ilmə üslublarını öyrən. O, elmi rəhbərinin dediyi kimi də edir. Ucqar bir dağ kəndində olur. Ancaq burada romantik bir macəraya düşür... Bu obraz, əslində, yazıçının arzu etdiyi təbii bir həyat axtarışı olub. Belə demək olar ki, yazıçı həyatda arzu etdiyi kimi yaşaya bilməyib...



İsi Məlikzadə 1988-ci ildə yenidən Bakıya qayıdır. Akademik Dram Teatrında ədəbi hissə müdiri işləyir. Bununla da onun fəaliyyətinin yeni mərhələsi başlanır.

Yazıçının maraqlı əsərlərindən biri də "Evin kişisi" povestidir. Əsərin qəhrəmanı Qaçay adlı sıravi milis işçisidir. Müəllif əsərdə Qaçayın həyatını təsvir edir. Ancaq Qaçay öz davranışı ilə sovet milisinin səlahiyyətlərini inandırıcı şəkildə əks etdirmir. Çünki o, arzu ediləcək qəhrəman səviyyəsində olmur. Hətta avam və sadəlövh düşüncə tərzi ilə gülüş doğurur. Rəis Qaçayı istehza ilə "Koroğlu" deyə, çağırır. Ancaq Qaçay nəinki Koroğlu, heç Keçəl Həmzə qədər də olmur. Eyni zamanda Qaçay mənən təmiz insandır. O bütün hallarda adının təmizliyinə sadiq qalır. Maraqlıdır ki, "Evin kişisi" çap olunandan sonra ədəbi tənqid də susmur. Qəhrəmanı passivlikdə ittiham edirlər. Ancaq Qaçay kimi insanlar həyatda, reallıqda bu gün də mövcuddur...

İsi Məlikzadənin təxminən otuz il ərzində 10 kitabı işıq üzü görüb: "Kövrək qanadlar", "Küçələrə su səpmişəm", "Yaşıl gecə", "Günəşli payız", "Dədə palıd", "Gümüşgöl əfsanəsi", "Şehli çəmənlərin işığı", "Dolaşaların Novruz bayramı" və s. Yazıçının 80-ci illərdə qələmə aldığı hekayələrdə dərin bir ruh düşkünlüyü sezilir.

Tanınmış yazıçı 1990–1994-cü illərdə "Azərbaycan" jurnalında şöbə müdiri vəzifəsində çalışıb, eyni zamanda ədəbi yaradıcılığını da davam etdirib.

İsi Məlikzadənin ssenari və əsərlərinin motivləri əsasında "Alma almaya bənzər", "Pəncərə", "Gümüşgöl əfsanəsi", "Evlənmək istəyirəm", "Hacı Qara" (Cahangir Mehdi ilə birlikdə), "Gəl, qohum olaq", "Küçələrə su səpmişəm" kimi ekran əsərləri çəkilib. Ədibin "Qatarda" hekayəsi əsasında hazırlanan eyniadlı televiziya tamaşası böyük maraqla qarşılanıb.

Diqqətəlayiq əsərləri ilə oxucuların qəlbində silinməz iz qoyan İsi Məlikzadə 5 dekabr 1995-ci ildə Bakıda vəfat edib, Ağcabədidə dəfn olunub.

**Savalan Fərəcov**

## Tarzən Əhsən Dadaşovun yubileyi qeyd edilib



Ustad tarzən, Əməkdar artist Əhsən Dadaşovun (1924–1976) anadan olmasının 100 illiyi dekabrın 20-də Beynəlxalq Muğam Mərkəzində qeyd edilib.

Tədbirdə çıxış edən Xalq artistləri Adil Bağırov, Şəfiqə Eyvazova, Milli Məclisin deputatı akademik Ziyad Səmədzadə tarzənlə bağlı xatirələrini bölüşüblər.

Bildirilib ki, Əhsən Dadaşovun ifası insan ruhunu oxşayaraq onu öz sehrinə salırdı. O, Səid Rüstəmov, Mənsur Mənsurov, Ənvər Mənsurov kimi ustad tarzənlərdən dərs alıb, ifaçılıq xüsusiyyətlərini dərindən mənimsəyərək inkişaf etdirib. Görkəmli müğənni Rəşid Behbudovun ansamblının üzvü kimi bir çox ölkələrdə qastrol səfərlərində olub, Azərbaycan musiqisini təmsil edib.

Əhsən Dadaşov 1960-cı ildə Azərbaycan Televiziyası və Radiosunda xalq çalğı alətləri ansamblı yaradıb və ömrünün sonuna kimi onun bədii rəhbəri olub. Hazırda "Xatirə" Xalq çalğı alətləri ansamblı (bədii rəhbəri Adil Bağırov) Əhsən Dadaşovun adını daşıyır. Əhsən Dadaşov həmçinin bir çox tarzənlərin sənət müəllimi olub.

Tədbirin bədii hissəsində Xalq artistləri Vamiq Məmmədəliyev, Nəzakət Teymurova, Malik Mansurov, tarzən və pedaqoq Elxan Müzəffərov, Əməkdar artistlər Əliağa Sədiyev, Səbuhi İbayev, Qoçaq Əsgərov, beynəlxalq və respublika müsabiqələri laureatları Mehri Əsədullayeva, Rövşən Qurbanov, Bəhruz Zeynal, Kamilə Nəbiyeva və "Əhsən" Xalq çalğı alətləri ansamblının iştirakı ilə konsert proqramı təqdim olunub.

Sonda tarzənin qızı Xanım Məhərrəmova tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

## Uşaq Kitabxanasında muxtar respublikanın 100 illiyinə həsr olunan tədbir





F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Naxçıvan Muxtar Respublikasının (NMR) 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Dekabrın 20-də təşkil edilən tədbirdə AMEA Ədəbiyyat İnstitutunun əməkdaşları və paytaxtdakı 31 nömrəli tam orta məktəbin bir qrup müəllim və şagirdi, digər qonaqlar iştirak ediblər.

Kitabxananın direktoru Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova tədbiri açaraq bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə NMR-in 100 illiyi geniş qeyd olunur. O, muxtar respublikanın tarix və mədəniyyəti haqqında məlumat verib, görkəmli şəxsiyyətləri barədə danışıb. Direktor onu da diqqətə çatdırıb ki, tədbirdə AMEA-nın Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Lütviyyə Əsgərzadənin NMR-in 100 illiyinə həsr edilən "Şeyx Məhəmməd Rasizadə" adlı kitabı da təqdim olunur.

Lütviyyə Əsgərzadə dahi şair-dramaturq Hüseyn Cavidin böyük qardaşı – tanınmış pedaqoq, şair, tərcüməçi, din xadimi Şeyx Məhəmməd Rasizadə (1878-1939) haqqında məlumat verib. Bildirib ki, Naxçıvanda maarifçi mühitin inkişafında mühüm rol oynamış Məhəmməd Rasizadə dahi siyasətçi, Ulu öndər Heydər Əliyevin də müəllimi olub.

"Mədəniyyət" qəzetinin baş redaktor müavini Fariz Yunisli monoqrafiyanın elmi əhəmiyyətini vurğulayıb, nəşrin eyni zamanda Naxçıvanın bir neçə onillik ədəbi-mədəni, maarifçi mühitinin də salnaməsi olduğunu diqqətə çatdırıb.

Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Solmaz Həyatova, institutun "Yaradıcılıq+" bölməsinin əməkdaşı, şair İbrahim Yusifoğlu və başqaları kitabın məziyyətlərindən danışıblar. İ.Yusifoğlu Naxçıvana həsr etdiyi şeirini söyləyib.

Sonra kitabxananın əməkdaşı Əsmər Ağalar "Naxçıvan Muxtar Respublikası – 100" adlı təqdimatla çıxış edib, qədim diyarın tarixi abidələri haqqında slayd nümayiş olunub.

Tədbirdə Cövdət Hacıyev adına 3 nömrəli 11 illik Musiqi məktəbinin müəllimlərdən ibarət muğam üçlüyünün ifasında "O Naxçıvandır" mahnısı və "Xudayar təsnifi" ("Vətən yaxşıdır") səsləndirilib. Məktəblilər Naxçıvan haqqında şeirləri qiraət ediblər.

Sonda qonaqlar kitabxana ilə tanış olublar.

# 2024-də dünyadan köçənlər

2024-ci ildə Azərbaycan mədəniyyəti, ədəbiyyatı, incəsənəti, elmi, mətbuatı adına itkilərimiz oldu. Ömür yolu bu il bitənlər...

**5 yanvar** – Əməkdar artist, qarmon ifaçısı Gülbahar Müzəffər qızı Şükürlü (20.3.1962 – 2024).
**6 yanvar** – Əməkdar artist, xanəndə Aygün Bəylər (Aygün Aydın qızı Hümbətova; 22.8.1975 – 2024).
**9 yanvar** – Yazıçı, ədəbiyyatşünas, Əməkdar incəsənət xadimi Çingiz Həsən oğlu Hüseynov (20.4.1929 – 2024).
**12 yanvar** – Heykəltaraş, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Telman Heydər oğlu Zeynalov (20.10.1931 – 2024).
**16 yanvar** – Arxeoloq, tarixçi, Qobustan abidələrinin tədqiqatçısı Firuzə Məmmədrza qızı Muradova (19.11.1934 – 2024).
**17 yanvar** – Tanınmış jurnalist Səbuhi Məmmədli (11.9.1970 – 2024).
**18 yanvar** – Ədəbiyyatşünas, mətbuat tariximizin tədqiqatçısı, Əməkdar jurnalist Şamil Qiyas oğlu Vəliyev (1960 – 2024).
**22 yanvar** – Lənkəran Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist Niftulla Fətulla oğlu Əsgərov (1959 – 22.1.2024).
**25 yanvar** – Əlyazmalar İnstitutunun direktor müavini, filoloq, mətnşünas Paşa Əli oğlu Kərimov (10.2.1959 – 2024).

**2 fevral** – Əməkdar jurnalist Rəhman Orxan (Məmmədzadə; 24.7.1950 – 2024).
**6 fevral** – Milli balet sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Rəfiqə Hacı qızı Axundova (7.8.1931 – 2024).
**12 fevral** – Azərbaycan uşaq ədəbiyyatının nümayəndəsi, şair-dramaturq Simax Şeyda (Simax Barux oğlu Yuşvayev; 20.6.1936 – 2024).
**14 fevral** – Balet artisti, uzun illər Akademik Opera və Balet Teatrında çalışmış Xəyyam Kələntərli (1941 – 2024).
**19 fevral** – Azərbaycanın və Tacikistanın Xalq artisti, müğənni Leyla Rəcəb qızı Şəripova (28.1.1930 – 2024).
**19 fevral** – Bədəlbəylilər nəslinin nümayəndəsi, Əməkdar müəllim Telman Əhməd oğlu Ağdamski (6.8.1936 – 2024).
**21 fevral** – Xalq yazıçısı, nasir, dramaturq, ssenarist Mövlud Süleymanlı (Mövlud Süleyman oğlu Balakişiyev; 18.3.1943 – 2024).
**24 fevral** – Muğam sənətinin tədqiqatçısı, şair, publisist Gülhüseyn Mərdan oğlu Kazımlı (4.2.1950 – 2024).

**14 mart** – Şair, publisist, Əməkdar jurnalist Zeynal Vəfa (Zeynalabdin İsmayıl oğlu Zeynalov; 2.12.1938 – 2024).
**14 mart** – AMEA-nın Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Şirindil Həsən oğlu Alışanlı (28.10.1952 – 2024).
**16 mart** – Əməkdar artist, xanəndə Sahibə Əliqulu qızı Əhmədova (11.1.1956 – 2024).
**18 mart** – Şərqşünas, BDU-nun professoru Əsədulla Qurbanov (1936–2024).
**28 mart** – Əməkdar artist, teatr və kino aktyoru Rahib Seyidağa oğlu Əliyev (12.7.1945 – 2024).
**29 mart** – Tarix elmləri doktoru, arxeoloq Tufan Axundov (26.11.1946 – 2024).

**1 aprel** – Arxeoloq, tarix elmləri doktoru, professor Qüdrət Seyfulla oğlu İsmayılzadə (24.10.1934 – 2024).
**12 aprel** – Sumqayıt Dövlət Dram Teatrının rejissoru, Əməkdar artist Namis Xanmirzə oğlu Şirməmmədov (3.4.1962 – 2024).
**20 aprel** – Akademik Rus Dram Teatrının aktyoru, Əməkdar artist Yuri Vladimiroviç Omelçenko (7.3.1976 – 2024).
**20 aprel** – Əməkdar artist, müğənni Cavanşir İrşad oğlu Məmmədov (15.3.1954 – 2024).
**29 aprel** – Əməkdar jurnalist, yazıçı-publisist Vasif Həzərxan oğlu Səmədov (22.1.1950 – 2024).

**13 may** – Əməkdar artist, Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestrinin dirijoru Faiq Əbülfəz oğlu Sadıqov (10.10.1948 – 2024).
**22 may** – Türkoloq, tərcüməçi, filologiya elmləri doktoru, professor Ramiz Baxşəli oğlu Əskər (10.1.1954 – 2024).
**23 may** – Əməkdar jurnalist Bəbir Qüdrət oğlu Hüseynov (26.12.1932 – 2024).
**24 may** – Xalq artisti, uzun illər Naxçıvan Dövlət Milli Dram Teatrının aktyoru olmuş Tofiq Səməd oğlu Mövləvi (1.7.1938 – 2024).
**31 may** – Uzun illər Azərbaycan Dövlət Rəsm Qalereyasında çalışmış Rauf Mirzəbəy oğlu Məlikzadə (4.6.1952 – 2024).

**22 iyun** – Əməkdar rəssam İsa Məmməd oğlu Məmmədov (5.3.1956 – 2024).
**30 iyun** – Əməkdar artist, tarzən, pedaqoq Səbuhi Aslan oğlu Cəfərov (1968 – 2024).

**15 iyul** – Ustad balabançı Nizami Əli oğlu Abbasov (1.1.1946 – 2024).
**26 iyul** – Azərbaycanın və Özbəkistanın Xalq artisti, 1977-ci ildən Ə.Nəvai adına Daşkənd Akademik Opera və Balet Teatrında rejissor işləmiş Firudin Səttar oğlu Səfərov (1.8.1933 – 2024).
**26 iyul** – Azərbaycan əsilli türkiyəli şair, nasir, tərcüməçi Əfşar Timuçin (31.8.1939 – 2024).

**1 avqust** – Əməkdar artist, Lənkəran Dövlət Dram Teatrının aktrisası Zemfira Musabala qızı Nəcəfova (1.4.1950 – 1.8.2024).
**10 avqust** – Bəstəkar, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rəhilə Teymur qızı Həsənova (10.11.1951 – 2024).
**16 avqust** – Azərbaycan ədəbiyyatının dostu, türkiyəli yazıçı, Avrasiya Yazarlar Birliyinin başqanı Yaqub Öməroğlu (25.3.1966 – 2024).
**18 avqust** – Tarixçi, şərqşünas, AMEA-nın Tarix İnstitutunun şöbə müdiri olmuş Şahin Fazil oğlu Fərzəliyev (27.3.1940 – 2024).
**20 avqust** – Publisist İlham Cəmiloğlu (Xudiyev; 25.1.1965 – 2024).
**21 avqust** – Əməkdar jurnalist Nair Əliyev (1974 –2024).
**25 avqust** – Tarixçi, jurnalist, BDU-nun Milli mətbuat tarixi kafedrasının professoru Nəsiman Qara oğlu Yaqublu (22.2.1962 – 2024).
**28 avqust** – Azərbaycan Dövlət Kukla Teatrının aktrisası olmuş Elmira Əmbər qızı Hüseynova (8.11.1952 – 2024).

**3 sentyabr** – Rəssam, pedaqoq Aydın Ələkbər oğlu Rzaquliyev (7.6.1953 – 2024).
**4 sentyabr** – Qazax Dövlət Dram Teatrının aktyoru Aydın Əmir oğlu Orucov (22.8.1963 – 2024).
**8 sentyabr** – Jurnalist, yazıçı Hidayət Elvüsal (Əhmədov; 25.6.1949 – 2024).
**13 sentyabr** – Əməkdar artist, Bakı Bələdiyyə Teatrının aktyoru Rafiq Əli oğlu İbrahimov (2.11.1955 – 2024).
**22 sentyabr** – Əməkdar artist, xanəndə Kifayət Gəncəli (Məmmədova; 2.11.1937 – 2024).

**13 oktyabr** – Yazıçı-jurnalist, ssenarist Yaqub Əlioğlu (Məmmədov; 26.8.1956 – 2024).
**15 oktyabr** – Əməkdar mədəniyyət işçisi, yazıçı-jurnalist Vaqif Ənvər oğlu Əlixanlı (13.10.1943 – 2024).
**19 oktyabr** – Əməkdar incəsənət xadimi, sənətşünas, "Azərbaycan muğamı ensiklopediyası"nın tərtibçisi Sürəyya Xosrov qızı Ağayeva (29.4.1947 – 2024).
**26 oktyabr** – Xalq artisti, opera müğənnisi Şahlar Həsənağa oğlu Quliyev (25.9.1946 – 2024).
**26 oktyabr** – Xalq artisti, bəstəkar, dirijor Yaşar Əbdülxalıq oğlu İmanov (21.3.1933 – 2024).




**9 noyabr** – Jurnalist, şair, ssenarist Zülfüqar Rüfətoğlu (Əhmədzadə; 22.6.1958 – 2024).
**26 noyabr** – Xalq artisti, violonçel ifaçısı, pedaqoq Rasi Mahmud oğlu Abdullayev (6.7.1944 – 2024) .
**29 noyabr** – Xalq rəssamı, uzun illər "Azərbaycanfilm"də fəaliyyət göstərmiş Rafiq Əliş oğlu Nəsirov (4.8.1947 – 2024).
**29 noyabr** – Rəssam, heykəltaraş Əsgər Şakir oğlu Kərimov (10.2.1941 – 2024).

**20 dekabr 2024** – Xalq rəssamı Tofiq Məmmədəli oğlu Ağababayev (8.9.1928 – 2024).
**21 dekabr** – Sumqayıt Dövlət Dram Teatrının aktyoru Yalçın Üzeyir oğlu Səlimov (1.7.1973 – 2024).

***

*2024-cü ildə dünya mədəniyyəti adına da itkilər oldu. Onlardan bir qismini yada salaq:*

**11 yanvar** – SSRİ Xalq artisti, teatr və kino aktyoru Yuri Solomin (18.6.1935 – 2024).
**9 mart** – Türk kinosunun ustadlarından aktyor Kayhan Yıldızoğlu (28.5.1933 – 2024).
**15 mart** – Rusiyanın Xalq artisti, Moskva Akademik Satira Teatrının bədii rəhbəri Aleksandr Şirvindt (19.7.1934 – 2024).
**20 iyun** – Kanadalı kino və teatr aktyoru Donald Sazerlend (17.7.1935 – 2024).
**18 avqust** – Dünya kinosunun məşhurlarından fransız aktyoru Alen Delon (8.11.1935 – 2024).
**27 sentyabr** – Britaniyalı aktrisa, iki dəfə "Oskar" mükafatçısı Marqaret Smit (28.12.1934 – 2024).
**3 noyabr** – Amerikalı bəstəkar və prodüser, 28 dəfə "Qremmi" mükafatçısı Kuinsi Cons (14.3.1933 – 2024).
**17 dekabr** – İspaniyalı teatr və kino aktrisası Marisa Paredes (3.4.1946 – 2024).

**Xatırladı: Vüqar Orxan**

# Unikal muzeydə yubiley söhbəti

## "Teatr muzeyi elə bir mədəniyyət saxlancıdır ki, hər bir eksponatın ayrıca hekayəsi var"



Teatr canlı sənət olduğu üçün onun muzeyə, saxlanca daha çox ehtiyacı var ki, yaddaşlarda qalan təəssürat, xatirələr ekspozisiya şəklində yaşayıb əbədiyyət qazansın.

### Tarix

Azərbaycan Dövlət Teatr Muzeyi bu il 90 illik tarixini geridə qoydu. Əslində, bu mədəniyyət ocağının, teatr sənətimizlə bağlı zəngin ekspozisiya və arxiv məkanının yaşı daha böyük rəqəmlə əlamətdar ola bilərdi.

Bu günlərdə muzeydə keçirilən yubiley tədbirində nümayiş olunan qısa sənədli filmdən və muzeyin direktoru Sevinc Mikayılova ilə söhbətimizdən bəlli olur ki, 1926-cı ildə Bakı Teatr Texnikumunun müəllimi Ağakərim Şərifov texnikumun ilk məzunları ilə Moskvada olarkən Teatr muzeyinə də baş çəkirlər. Ağakərim Şərifov muzeyin yaradıcısı Aleksandr Baxruşinlə görüşür, ondan muzey işini sistemləşdirməyi öyrənir. Bakıya qayıdan kimi Xalq Maarif Komissarlığına Bakıda da belə bir muzeyin yaradılması ilə bağlı müraciət edir. 1927-ci ildə görkəmli teatr aktyoru və rejissoru Sidqi Ruhullaya aid arxiv materialları toplanaraq bir sərgi açılır. Bu, yaradılacaq muzeyin ilk ekspozisiyası olur. Tağıyev teatrının (onun yerində indiki Akademik Musiqili Teatrı inşa olunub – red.) foyesində muzeyin açılış mərasimi olur. Xalq Maarif Komissarlığı vətəndaşlara müraciət edir ki, teatra aid materialları varsa, gətirib muzeyə versinlər. Amma 1928-ci ildə muzey bağlanır.

1934-cü ildə yenidən yaradılır və Ağakərim Şərifov direktor təyin edilir. Elə həmin ilin son günü Cəfər Cabbarlı vaxtsız vəfat edir və teatr sənətimizdəki xidmətləri nəzərə alınaraq 1935-ci ildə muzeyə böyük dramaturqun adı verilir.

1937–1938-ci illərin acı yelləri teatr xadimlərinin, habelə Dövlət Teatr Muzeyinin də üstündən əsib. Bir sıra teatr xadimləri repressiyaya məruz qalıblar. Onların arasında muzeyin direktoru Ağakərim Şərifovun qohumları da vardı. Bir qədər sonra Ağakərim Şərifov işdən azad edilir. Həmin illərdə muzeyin elmi işçisi Afərin Məmmədbəyova öz həyatını təhlükəyə qoyaraq repressiya qurbanlarının muzeydəki əşyalarını gizlədir, müsadirə olunmaqdan qoruyur və beləliklə həmin sənədlər bu günümüzə gəlib çatır.

1991-ci ildən Muzey Mərkəzinin binasında yerləşən Cəfər Cabbarlı adına Dövlət Teatr Muzeyinin fondunda 140 mindən çox arxiv materialı var. Bu eksponatlar 1873-cü ildə M.F.Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının tamaşası ilə milli peşəkar teatrımızın əsasının qoyulmasından başlayaraq, ölkəmizdə fəaliyyət göstərən bütün teatrların salnaməsini və fəaliyyətini əks etdirir. Bura tarixi-faktiki sənədlər, proqram və afişalar, dekorasiya və geyim eskizləri, sənət xadimlərinin əlyazmaları, qeyd və rol dəftərləri, məktubları, memorial əşyaları, müxtəlif rollarda çıxış edərkən geyindikləri əlbisələr, tamaşaların maketləri, zəngin foto kolleksiyası və s. daxildir.

### Muzeyin yeni dövrü

Sevinc Mikayılova muzeydə 1986-cı ildən, tələbəlik vaxtından çalışır. Deyir, Turan xanım Cavidin (1953-cü ildən Dövlət Teatr Muzeyində elmi işçi, 1968–1991-ci illərdə muzeyin direktoru olub – red.) rəhbərliyi altında gözlərimin qarşısında baş verən muzeyin bütün fəaliyyəti onu bu sənət saxlancı məkanına bağlayıb. Elmi işçi, elmi katib, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışıb, 2015-ci ildən muzeyin direktorudur.

*– Burada çalışdığınız illərdə dövrün, zamanın dəyişməsi ilə yanaşı, həm muzey işində, həm də insanların, muzeyi ziyarət edənlərin teatr tarixinə münasibətində də dəyişiklikləri də müşahidə etmisiniz...*

– İndi dünya elə sürətlə dəyişir ki. Əvvəllər belə olmurdu, dəyişikliklər mərhələlərlə baş verirdi. Təbii ki, müəyyən müqayisələr aparmağa imkan yaranır. Muzey işində ən böyük dəyişikliklərdən biri interaktivliyin artmasıdır. Bunu zaman tələb edirdi. Çünki müasir dövrün muzey ziyarətçisinin gözləntiləri əvvəlkilərdən çox fərqlənir. Müasir insanın uzun-uzadı ekskursiyanı dinləməyə marağı və səbri, demək olar ki, yoxdur. Buna görə eksponatları yığcamlaşdırıb interaktiv ekspozisiya qurmaq zərurəti yaranır. Teatr korifeylərimizlə ünsiyyətdə olmuş, ən azı onları həyatda görmüş insanların söhbətləri də bəzən gənclərə darıxdırıcı təsir bağışlayır. Belə söhbətləri videocarxlarla, sərgilərlə, ustad dərsləri, qiraət saatları tərzində qurulmuş təqdimatlarla əvəz etməli oluruq.

*– Təhsil Nazirliyinin "Məktəbdə teatr" layihəsinə yəqin ki, öz töhfənizi verirsiniz?*

> "Dünyada teatr muzeyləri azdır. Azərbaycan Dövlət Teatr Muzeyi Cənubi Qafqazda və Yaxın Şərqdə ilk və yeganədir. Bir çox ölkələrdə teatr muzeyləri deyil, teatrlarda görkəmli sənətkarların guşələri var"

– Bu layihə ilə bağlı bizə müraciət edən olmayıb. Amma ideyalarımız çoxdur və teatr tariximizi yeni üslubda təbliğ edən aksiyalar reallaşdıra bilərik. Bizim muzeyin spesifikası elədir ki, azyaşlı məktəblilərlə teatr tarixi mövzusunu açmaq, təqdim etmək fərqli vasitələrlə mümkündür. Məsələn, teatr rəssamlığı ilə bağlı ustad dərslərində uşaqlara mütaliə etdikləri əsərlərin personajlarının rəsmini çəkməyi həvalə edirik. Və təbii ki, dərs proqramına uyğun olaraq məktəblilərin və tələbələrin muzeyi ziyarət etmələri və dərs prosesində tanış olduqları ədibin əsərinin teatr tarixçəsini öyrənmələri onların dünyagörüşünün zənginləşməsinə xidmət edir.





Gənclərimizin özünüifadə, öz fikrini formalaşdırıb söyləmək bacarıqlarını inkişaf etdirməsinin də qeydinə qalaraq vaxtaşırı "dəyirmi masa"lar keçiririk. Bunlar çox həssas məsələlərdir. Ona görə də valideynlər son dərəcə diqqətli olmalıdırlar. Çünki normal ailədə boya-başa çatmış gənc pis vərdişə qurşanmaz, peşə seçimində səhvə yol verməz, nə də kimisə nahaqdan incitməz. Əlbəttə, bu kimi məsələləri muzeyin əhatə etməsi mümkün deyil. Amma həm də vətəndaş kimi hesab edirəm ki, səlahiyyətimiz və imkanlar çərçivəsində gənclərin düzgün şəxsiyyət olaraq formalaşmasına öz töhfəmizi əsirgəməməliyik.

*– Teatr xadimlərinin arxiv materiallarının muzeyə təhvil verilməsi necədir? Ailələri buna maraq göstərirmi?*

– Təəssüf ki, bizdə bu ənənə çox zəifdir. Ailə üzvləri görkəmli sənət xadimlərinin arxiv materiallarını evdə saxlamağa üstünlük verirlər.

*– Sonra da gileylənirlər ki, mənim o boyda işlər görmüş qohumumu tanıyan yoxdur...*

– Bəli, amma halbuki belə gileylərdən öncə arxiv materiallarını vaxtında muzeyə təhvil verə bilərdilər. Söhbət düşəndə deyirlər ki, yaşayış yerimizi dəyişəndə, ya da evi təmir edəndə itdi, evi su basanda məhv oldu. Belə söhbətləri eşidəndə çox məyus oluram. Çünki bir sənət adamının şəxsi arxivinin fotosundan, yaxud bircə məktubundan başqa neçə sənətkarın həyatı və yaradıcılığı ilə bağlı məlumatlar üzə çıxa bilər. Başqa xalqların görkəmli şəxsiyyətləri haqqında, məsələn, bir verilişə baxanda görürük ki, həmin insanın həyatının bütün dövrlərinə aid materiallar tamaşaçılara nümayiş etdirilir. Bizdə isə bəzilərinin doğum tarixi, tərcümeyi-halı ilə bağlı faktlarda belə boşluqlar var. Bəzi görkəmli teatr xadimlərimizin doğum tarixini dəqiqləşdirmək üçün çətinliklərdən keçməli oluruq və bəzən heç buna nail ola bilmirik. Çünki ailə üzvləri heç bir arxiv materialını gətirib muzeyə təhvil verməyiblər və sənədlər, fotolar, əlyazmalar müxtəlif şəraitlərdə ya itib, ya da yararsız hala düşüb. Halbuki söhbət yaxın keçmişdən gedir. Yaxud da bəziləri deyirlər ki, surətini çıxarıb götürün, əsli özümüzdə qalsın. Nəzərdən qaçırırlar ki, muzeydə əşyanın, sənədin məhz əsli nümayiş etdirilməlidir.

*– Yəqin ki, görkəmli teatr xadimlərinin ailə üzvlərinə bununla bağlı müraciətlər edirsiniz?*

– Əlbəttə, müraciətlər edirik. Təəssüf ki, eşidib düzgün qarşılayanlar azdır. Məsələn, ən son fond zənginləşməmizdən biri teatr rəssamı Tahir Tahirova aid oldu. Oğlu onun tamaşalara çəkdiyi eskizləri muzeyimizə təqdim etdi. Çox böyük həvəslə qəbul etdik. Teatrlarla sıx əlaqədəyik. Hər mövsümün sonunda il ərzində repertuarda olan tamaşalara aid fotoları, proqramları, afişaları muzeyimizə təhvil verirlər.

Teatr rəssamlarımızla bağlı bir məqamı qeyd etmək istəyirəm. Əlbəttə, hər şeyin elektronlaşması gündəlik həyatımızı asanlaşdırır. Amma həm də bizi kökümüzdən ayırır. Yəni elektronlaşmanın həm müsbət tərəfi var, həm də mənfi tərəfi. Konkret olaraq onu deyim ki, son dövrlərdə muzeyimizə orijinal tamaşa dekorasiya və geyim eskizi daxil olmur. Çünki rəssamların demək olar ki, hamısı kompüterdə işləyirlər. Ona görə də teatr rəssamlarının işlərindən ibarət sərgi təşkil edəndə yalnız əvvəlki dövrün rəssamlarının – Əzim Əzimzadə, Kazım Kazımzadə, Bədurə Əfqanlı, İsmayıl Axundov, İzzət Seyidova, Tahir Tahirov və digərlərinin fəaliyyətinə istinad edə bilirik. Hamısının da boyaları təptəzə qalıb. Teatr rəssamlarının müasir nəslinin bütün işləri printerdən çıxarılmış formatdadır. Sadəcə, kağızdır. Onlar muzey əhəmiyyətli əşya ola bilməz. Üstəlik, az vaxtdan sonra rəngləri solur. Biz o işləri eksponat kimi yox, bir tədqiqat mənbəyi kimi köməkçi fondumuza qəbul edirik.

*– Müasir teatr rəssamları bu məqamı nəzərə almır? Axı onların yaradıcılığının teatr rəssamlığı səhifəsi gələcək nəsildə dolğun təsəvvür yaratmayacaq...*

– Hamı rahatlığa qaçır. Tamamilə düz deyirsiniz – o rəssamlar teatr rəssamlığından əlavə boyakarlıqla da məşğul olurlarsa, təbii ki, orda klassik üslubda işləyirlər. Amma yaradıcılıqlarının teatr rəssamlığı səhifəsinin ötəri olması nədənsə onları narahat etmir. Eyni fikri əlyazmalara aid də deyə bilərəm: indi əl yazısından kim istifadə edir? Hamı kompüterdə, smartfonda yazır, hətta sözdən çox smaylikdən istifadə edir. Yəni sənət xadimindən bir əl yazısı belə yadigar qalmır. Sanki hər şey ötəri xarakter qazanır.

*– Başqa ölkələrin teatr muzeyləri ilə əməkdaşlıq necə qurulub?*

– Ən sıx əməkdaşlığımız Moskvadakı Baxruşin adına Teatr Muzeyi ilədir. Çünki bizim muzey məhz o muzeydən bəhrələnərək qurulub. Ukraynanın Xarkov şəhərindəki muzeylə də əlaqələrimiz sıxdır. Xarkovlu teatr rəssamı Tixomirov vaxtilə bir müddət bizdə də teatr rəssamı kimi fəaliyyət göstərib. Xarkov Teatr muzeyi bizdən onun yaradıcılığının Bakı dövrünə aid materialların surətini istəmişdi, biz də hazırlayıb göndərdik. Uzaq xaricdən maraqlananlar olur. Məsələn, Şərq dramaturgiyası və teatrı ilə bağlı tədqiqat işi yazanlar muzeyimizə müraciət edirlər. Ümumiyyətlə, dünyada teatr muzeyləri azdır. Bizim muzey Cənubi Qafqazda və Yaxın Şərqdə ilk və yeganədir. Bir çox ölkələrdə teatr muzeyləri deyil, teatrlarda görkəmli sənətkarların guşələri var.

*– Deməli, əcnəbilərdən də teatr tariximizlə maraq göstərən olur?*

– Əlbəttə. Azərbaycan teatrının çox maraqlı tarixi var. Azərbaycan milli peşəkar teatrı milli dramaturgiyanın üzərində qurulub. Dünya teatr tarixində bu kifayət qədər nadir haldır. Və ilk teatr tamaşalarımız haqqında istər yerli, istərsə də əcnəbi ziyarətçiyə məlumat verəndə mütləq onu da qeyd etməliyik ki, Azərbaycan teatrının təşəkkül tapmasında əvəzsiz xidmətləri olan Ülvi Rəcəbin, Abbas Mirzə Şərifzadənin, Hüseyn Ərəblinskinin və digərlərinin teatr təhsili olmasa da, ürəklərində sönməz maarifçilik və sənət yanğısı olub. Çünki şəxsiyyət olublar. Və yaxud Hökümə Qurbanovanı, məsələn, "Qış nağılı"nda Hermiona rolunda görənlərin xatirələrinə əsasən aktrisanın səhnədə uzun müddət kirpiyini belə titrətmədən dayandığını danışmaqla ziyarətçiyə Şekspir personajlarının Azərbaycan səhnəsində təcəssümü ilə unikal bilgi qazandırmış oluruq. Bütün bunlara Londonda Şekspir muzeyində Ülvi Rəcəbin Hamlet obrazındakı fotoportretinin saxlanılması faktını da əlavə edəndə təsəvvürün necə zənginləşdiyini vurğulamaq artıqdır.

Teatr muzeyi elə bir mədəniyyət saxlancıdır ki, burda hər bir eksponatın ayrıca hekayəsi var, ziyarətçiyə danışmaq lazımdır ki, bu və ya digər foto, məktub, afişa, proqram məhz hansı özəlliyinə görə bu muzeydədir. Bunu şifahi şəkildə danışmaq mütləqdir. Bu olmadan, sadəcə hər eksponatın üzərindəki bir-iki kəlməlik məlumat lövhəsi ilə ziyarətçidə heç bir dolğun məlumat, canlı təsəvvür yaranmayacaq. Bizim muzeyin üzərinə belə bir missiya düşüb və bunu layiqincə yerinə yetirməyə çalışırıq.

### Sözardı

Teatr muzeyində dəfələrlə olmuşam. Bu dəfə də yeni təmir edilmiş zalları ziyarət etdim. Hər dəfə də eksponatları nəzərdən keçirdikcə onların hər birinin sanki tarixdən süzülüb gələn sədasını eşidirəm. Bu təəssüratın daim yenilənməsi və Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin növbəti yubileylərini görmək arzusu ilə

**Samirə Behbudqızı**

## Xatirə təqvimi — 22 – 28 dekabr

**22 dekabr 1898** – Əməkdar incəsənət xadimi, rejissor, aktyor Ağarza Səməndər oğlu Quliyev (1898 – 15.9.1976) Lənkəranda doğulub. "Qara daşlar", "Səhər", "Ulduz" filmlərinə quruluş verib, filmlərdə çəkilib.

**22 dekabr 1906** – Xalq artisti, xanəndə Əlövsət Şirəli oğlu Sadıqov (1906-1971) anadan olub. 1930-cu ildən Dövlət Opera və Balet Teatrında çalışıb.

**22 dekabr 1911** – Tanınmış jurnalist, pedaqoq Nəsir Əsədulla oğlu İmanquliyev (1911–1998) Bakıda doğulub. "Bakı" ("Baku") qəzetinin yaradıcısı və 30 ilə yaxın baş redaktoru, BDU Jurnalistika fakültəsinin müəllimi olub.

**22 dekabr 1920** – Yazıçı, ssenarist, rejissor, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli (1920 – 25.6.1980) Bakıda doğulub. "Uzaq sahillərdə" (İ.Qasımovla birgə), "Cəbhədən cəbhəyə" romanlarının, pyeslərin müəllifidir. "Telefonçu qız", "Bizim Cəbiş müəllim", "Nəsimi" filmlərinə quruluş verib. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olub.

**22 dekabr 1934** – Xalq artisti İbrahim Əhməd oğlu Məmmədov (Bənəniyarlı; 1934 – 9.9.2014) Naxçıvan MR Culfa rayonunun Bənəniyar kəndində doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**23 dekabr 1911** – Şərqşünas, tərcüməçi, Əməkdar elm xadimi Məmməd Mübariz Əli oğlu Əlizadə (1911 – 9.4.1994) anadan olub.

**23 dekabr 1913** – Əməkdar artist İmamverdi Salman oğlu Bağırov (1913 – 6.5.1985) doğulub. İrəvan Dövlət Azərbaycan, Akademik Milli Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**23 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 30.3.1993) anadan olub.

**23 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi Nəcəf Abbas oğlu Həsənzadə (1927–2012) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında aktyor və rejissor assistenti kimi fəaliyyət göstərib, filmlərə çəkilib.

**23 dekabr 1945** – Əməkdar artist Sadiq Əliabbas oğlu İbrahimov (1945 – 20.8.2010) Bakıda doğulub. Akademik Milli Dram Teatrının aktyoru olub.

**23 dekabr 1945** – Əməkdar incəsənət xadimi, bəstəkar Mobil Rəşid oğlu Babayev (1945 – 10.11.2023) Gəncədə doğulub. Televiziya tamaşalarına, filmlərə musiqi yazıb.

**23 dekabr 1946** – Xalq artisti, balerina, Dövlət mükafatı laureatı Çimnaz Məmməd qızı Babayeva (1946 – 23.12.2019) Bakıda doğulub. Akademik Opera və Balet Teatrının solisti olub, teatrda baletmeyster kimi fəaliyyət göstərib.

**23 dekabr 1986** – Əməkdar artist Qurban Baxşəli oğlu Mirzəyev (1920–1986) vəfat edib. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**23 dekabr 2022** – Əməkdar incəsənət xadimi, teatr rejissoru Oruc İzzət oğlu Qurbanov (24.7.1949 – 2022) vəfat edib. Müxtəlif teatrlarda çalışıb, Lənkəran Dövlət Dram Teatrının baş rejissoru olub.

**23 dekabr 2023** – Əməkdar mədəniyyət işçisi Gülçöhrə Məmməd qızı Şəfiyeva (17.3.1949 – 2023) Bakıda anadan olub. Heydər Əliyev Sarayının baş rejissoru işləyib.

**24 dekabr 1872** – Yazıçı-publisist, pedaqoq Ömər Faiq Nemanzadə (1872 – 10.10. 1937) Gürcüstanda, Ahıska (Axalsıx) qəzasının Azqur kəndində doğulub. "Şərqi-rus" qəzetinin, "Molla Nəsrəddin" jurnalının yaradıcılarındandır. Gürcüstanda və Azərbaycanda maarif sahəsində çalışıb, repressiya qurbanı olub.

**24 dekabr 1926** – Əməkdar artist, balaban və klarnet ifaçısı Bəhruz Mahmud oğlu Zeynalov (1926 – 25.5.1998) Bakıda anadan olub.

**24 dekabr 1928** – Əməkdar memar, memarlıq elmləri doktoru, akademik, Azərbaycan Dövlət mükafatı laureatı Şamil Seyfulla oğlu Fətullayev (1928 – 9.3.2015) Bakıda anadan olub. Azərbaycan memarlıq tarixinə dair dəyərli tədqiqatların müəllifidir.

**24 dekabr 1939** – Şair, yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (1939 – 23.9.2015) Kəlbəcər rayonunun Laçın kəndində doğulub.

**24 dekabr 1954** – Xalq artisti Natalya Valeh qızı Tağıyeva (1954 – 16.1.2005) anadan olub. Dövlət Rus Dram Teatrının aktrisası olub, filmlərdə çəkilib.

**25 dekabr 1896** – Əməkdar incəsənət xadimi, kino istehsalı təşkilatçısı Teymur Əli oğlu Hüseynov (1896–1973) anadan olub.

**25 dekabr 1906** – Əməkdar incəsənət xadimi, görkəmli kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (1906 – 7.11.1990) Bakıda doğulub. "Bir qalanın sirri", "Bizim küçə", "Sehrli xalat" və s. filmlərə quruluş verib, "O olmasın, bu olsun", "Uzaq sahillərdə" filmlərinin operatoru olub.

**25 dekabr 1908** – Xalq artisti, teatr rejissoru, aktyor İbrahim (Miribrahim) Tağı oğlu Həmzəyev (1908 – 4.2.1982) Gəncə şəhərində doğulub. 1937-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın direktoru, baş rejissoru olub.

**25 dekabr 1909** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (1909 – 8.9.1982) Şamaxıda doğulub. Akademik Milli Dram Teatrında çalışıb.

**25 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 31.3.1993) Tovuz rayonunda anadan olub. Gəncə Dram, Gənc Tamaşaçılar teatrlarında çalışıb.

**25 dekabr 1931** – Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov (1931 – 27.4.2020) Göyçə mahalının (Ermənistan SSR) Cil kəndində doğulub. 50 ildən çox BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri olub.

**25 dekabr 1934** – Ədəbiyyatşünas, şair-publisist Famil Mehdi (Famil Ağalar oğlu Mehdiyev; 1934 – 18.9.2003) Ağdam rayonunun Sarıhacılı kəndində doğulub.

**25 dekabr 1935** – Xalq yazıçısı Yusif Səmədoğlu (Vəkilov; 1935 – 17.8.1998) anadan olub. "220 saylı otaq", "Qalaktika" hekayələr toplusu, "Qətl günü" romanının müəllifidir. "Yeddi oğul istərəm", "Qətl günü" filmlərinin ssenarisini yazıb.

**25 dekabr 1941** – Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva (1941 – 16.11.1995) Şəmkirin Morul kəndində doğulub. Gəncə və Naxçıvan teatrlarında, Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**25 dekabr 1954** – Əməkdar incəsənət xadimi, şair Ağalar Həmzə oğlu Mirzə (1954 – 5.3.2008) Şabran rayonunda doğulub.

**25 dekabr 2016** – Xalq artisti, tanınmış xanəndə Ağaxan Minaxan oğlu Abdullayev (6.2.1950 – 2016) vəfat edib.

**26 dekabr 1910** – Yazıçı, tərcüməçi Yusif Şirvan (Yusif Əsgər oğlu Əsgərov; 1910–1979) Şamaxıda anadan olub.

**26 dekabr 1919** – Xalq artisti, rəqqasə Əminə Paşa qızı Dilbazi (1919 – 30.4.2010) Qazaxda anadan olub. Bakı Xoreoqrafiya Məktəbində dərs deyib. "O olmasın, bu olsun" filmində çəkilib. "Ulduz", "Arşın mal alan" (1965) filmlərində rəqslərə quruluş verib.

**26 dekabr 1950** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (1950 – 10.10.2015) Şəkidə anadan olub. Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**27 dekabr 1912** – Əməkdar incəsənət xadimi, kinorejissor Zeynəb Talıb qızı Kazımova (1912 – 25.9.1984) anadan olub. "Azərbaycanfilm"də bədii filmlərin 2-ci rejissoru olub, sənədli filmlərə quruluş verib.

**27 dekabr 1932** – Xalq artisti, bəstəkar Oqtay Kazımi (Oqtay Məmməd oğlu Kazımov; 1932 – 9.8.2010) Astara şəhərində doğulub. 200-dək mahnının, tamaşalara musiqinin, simfoniya, oratoriya və s. əsərlərin müəllifidir.

**27 dekabr 1934** – Xalq rəssamı, heykəltaraş, Dövlət mükafatları laureatı İbrahim İsmayıl oğlu Zeynalov (1934 – 6.3.2008) Bakıda doğulub.

**27 dekabr 1938** – Xalq artisti Safurə Ağabala qızı İbrahimova (1938 – 21.12.2020) Bakıda anadan olub. Milli Dram Teatrında çalışıb. "Sevil", "Arşın mal alan", "Qatır Məmməd", "Alma almaya bənzər", "Dərviş Parisi partladır" və s. filmlərdə çəkilib.

**27 dekabr 1990** – Xalq artisti, xanəndə Əbülfət Əsəd oğlu Əliyev (30.12.1926 – 1990) vəfat edib.

**27 dekabr 2021** – Əməkdar artist Zilli Yunus oğlu Namazov (15.10.1951 – 2021) vəfat edib.

**28 dekabr 1927** – Əməkdar incəsənət xadimi, bəstəkar Nəriman Həbib oğlu Məmmədov (1927 – 6.4.2015) Naxçıvan şəhərində doğulub.

**28 dekabr 1941** – Şair, publisist Şahmar Əkbər oğlu Əkbərzadə (1941 – 30.8.2000) Ağdam rayonunun Çəmənli kəndində doğulub. "Mədəniyyət" qəzetinin yaradıcısı və baş redaktoru (1991-2000) olub.

**28 dekabr 1968** – Xalq artisti Mustafa Həşim oğlu Mərdanov (28.2.1894 – 1968) vəfat edib. Akademik Dram Teatrında çalışıb, filmlərdə çəkilib. Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

**Hazırladı: V.Orxan**

# Parisdəki AMM-də Yeni il bayramı və Həmrəylik Günü

Fransa-Azərbaycan Dialoqu Assosiasiyası və ölkəmizin səfirliyinin dəstəyi ilə Parisdə fəaliyyət göstərən "Natəvan" məktəbinin şagirdləri üçün Yeni il bayramı təşkil olunub.





Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) keçirilən tədbirdə "Natəvan" məktəbinin müəllim və şagirdləri, valideynlər, səfirliyin əməkdaşları iştirak ediblər.

Səfir Leyla Abdullayeva çıxış edərək məktəbin kollektivini qarşıdan gələn Yeni il münasibəti ilə təbrik edib, əmin-amanlıq, firavan həyat arzulayıb.

"Natəvan" məktəbi şagirdlərinin Yeni il münasibətilə hazırladıqları ədəbi-musiqili proqram nümayiş olunub.

Parisdəki AMM-də 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də tədbir keçirilib.

Mərasimdə səfir Leyla Abdullayeva bu günün əhəmiyyətindən söz açıb, Fransa kimi bir ölkədə Azərbaycan icmasının həmrəyliyinin xüsusilə vacibliyini qeyd edb.

Bədii hissədə XIII "Şərq tərənələri" Beynəlxalq Musiqi Festivalının (Səmərqənd) Qran-pri mükafatçısı "Simurq" muğam ansamblı çıxış edib. Əməkdar artist Kamran Kərimov (nağara), Zəki Vəliyev (tar), Elnur Mikayılovun (kamança) müşayiəti ilə xanəndə Mirələm Mirələmov xalq və bəstəkar mahnılarını ifa edib.

Rəssam Rövşən Nur soydaşlarımızın həmrəyliyini əks etdirən əsərini çəkib.

***

Bu arada Parisdəki "Galerie Francis Barlier" salonunda təşkil olunan müasir incəsənət sərgisində ("Exposition d'Art Contemporain") ölkəmiz də təmsil olunub. Sərgidə rəssamlar Əsmər Nərimanbəyova, Rövşən Nur, Sahib Əsədli və Leyla Əliyevanın əl işləri nümayiş olunub.

# Avstriya şirkəti cazmen Rain Sultanovun vinil diskini buraxıb

Avstriyanın "Second Records" leybl şirkəti Azərbaycanın caz ustası, Əməkdar artist Rain Sultanovun kanadalı caz truba ifaçısı və bəstəkar Kenni Uiler (Kenny Wheeler; 1930–2014) ilə birgə "Jazz Standards Live" adlı qoşa vinil valını buraxıb.




Rain Sultanov deyib ki, bu layihənin reallaşdırılması onun həyatında böyük hadisədir: "Kenni Uiler kimi görkəmli musiqiçi ilə eyni səhnəni bölüşmək, onunla ifa etmək mənim üçün böyük şərəf idi. Onun artıq aramızda olmadığı bir vaxtda indi vinil valının buraxılması xüsusilə dəyərlidir".

Albomda "Body & Soul", "Blue Monk", "Don't Worry Baby" caz standartları, eləcə də Kenny Uillerin bəstələri yer alıb.

"Jazz Standards Live" layihəsində Rain Sultanovla (saksofon) bərabər, Azərbaycanın Əməkdar artistləri Şahin Növrəsli (piano) və Ruslan Hüseynov (bas), həmçinin Pol Klarvis (baraban) iştirak ediblər. Bu, Rain Sultanovun Avropa leybli tərəfindən buraxılan beşinci vinil valdır. Klassik vinil valların ənənələri Rain Sultanov tərəfindən 2017-ci ildə Azərbaycan təbiətinə həsr olunmuş "Inspired by Nature" layihəsi ilə ölkəmizə qaytarılıb.

# Vatikan muzeylərində günəş panelləri

Vatikanda qeyd olunacaq Müqəddəs Yubiley İli (2025) ərəfəsində muzey kompleksinin girişindəki "Cortile delle Corazze" zalında yeni günəş paneli damının açılışı olub.



Layihə Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransiskin iyun ayında açıqladığı "yaşıl vizyon"un tərkib hissəsidir. Vatikandakı anbarın damında da günəş panelləri quraşdırılır və bu işlər gələn ilin ilk aylarında yekunlaşacaq.

"Vatikan Dövlətinin beynəlxalq arenada üzərinə götürdüyü öhdəliklər var. Biz onları nəinki yerinə yetiririk, eyni zamanda, digər beynəlxalq reallıqlar üçün nümunə təşkil edirik. Bu barədə COP29-da beynəlxalq səviyyədə məlumat vermişik. 2030-cu il üçün hədəfləri qeyd etmişik və onlara əməl edirik", – deyə Vatikanın İnfrastruktur və Xidmətlər İdarəsinin rəisi Salvator Farina bildirib.

# Albaniyada da "TikTok" qadağan edilir

Yanvar ayından etibarən "TikTok" sosial şəbəkəsi Albaniyada azı bir il müddətinə qadağan ediləcək.

Baş nazir Edi Rama bu barədə müəllimlərlə görüşündə bildirib. O qeyd edib ki, paralel olaraq şagirdlərin təhsil almasına kömək edən proqram təminatları hazırlanacaq.

Ötən ay paytaxt Tiranada şagirdlər arasında sosial şəbəkədə başlayan mübahisənin 2 məktəblinin ölməsi ilə nəticələnməsi hökuməti bu addımı atmağa vadar edib.

Xatırladaq ki, 2024-cü ilin aprel ayında Qırğızıstanda "TikTok"a girişin məhdudlaşdırılması barədə qərar qəbul edilib. Qırğızıstanın Rəqəmsal İnkişaf Nazirliyinin məlumatında bildirilir ki, sosial şəbəkənin uşaqların sağlamlığına, fiziki, əqli və əxlaqi inkişafına zərərin qarşısının alınması üzrə tədbirlər haqqında qanuna əməl etməməsi bu qərarı zəruri edib. 2023-cü ildə Qırğızıstan Mədəniyyət Nazirliyi "TikTok"u bloklamaq barədə hökumətə müraciət etmişdi.

Bu ilin noyabrında isə Avstraliyada sosial şəbəkə istifadəçiləri üçün 16 yaş məhdudiyyəti qoyan qanun qəbul edilib. Yeni qaydalar "Snapchat", "TikTok", "Instagram" və "X" sosial şəbəkələrini əhatə edəcək.

Qısa videoları yükləməyə imkan verən "TikTok" sosial şəbəkəsi 2017-ci ildə Çində ("ByteDance" kompaniyası) istifadəyə verilib, şəbəkənin beynəlxalq versiyası isə 2018-ci ildən işləkdir.

# Florensiyada XVI əsrə aid gizli keçid ziyarət üçün açılıb

İtaliyanın Florensiya şəhərində XVI əsrə aid gizli keçid ilk dəfə olaraq ictimaiyyət üçün açılıb.



"Vasari" adlanan dəhlizi Florensiya elitası cəmiyyətdən uzaq olmaq və düşmənlərdən qorunmaq üçün istifadə edib. Gizli keçid Florensiyada hakimiyyətdə olan Mediçi sülaləsi üçün 1565-ci ildə rəssam-memar Giorgio Vasari tərəfindən ev və iş yerini birləşdirmək üçün tikilib. Dəhliz Florensiyanın ən məşhur üç yerini birləşdirib: Veççio Sarayı (şəhərin siyasi mərkəzi), Uffizi Qalereyası və Pitti Sarayı (ailənin yaşadığı yer).

Florensiyanın mərkəzindən keçən dəhlizin uzunluğu 750 metrdir. Səyahət zamanı 106 pillə enmək lazımdır. Arzu edənlər buranı 20 avro müqabilində görə bilərlər.

# Afrikada əhali artacaq, Avropa və Asiyada azalacaq

Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, Afrika qitəsinin əhalisi 2070-ci ilə qədər iki dəfə artaraq 3,2 milyarda çatacaq.

Təşkilatın demoqrafik vəziyyətə dair son hesabatına görə, Avropa və Asiya qitələrində isə əhalinin artım tempi sürətlə aşağı düşür.

"Avropanın əhalisi artıq azalmağa başlayıb. Bu tendensiya davam edəcək. Asiya və Latın Amerikasında əhalinin 2050-ci illərdən başlayaraq azalması proqnozlaşdırılır", – deyə hesabatda bildirilir.

Qeyd olunur ki, Afrikanın gənc əhalisi iqtisadi inkişaf üçün böyük potensial yaradır. Lakin bu sürətli artım təhsil, səhiyyə və infrastruktur sahələrində ciddi problemlər doğura bilər. Avropa və Asiyada əhalinin azalması iqtisadi artıma təsir edə bilər. Lakin bu, eyni zamanda ekoloji davamlılıq və resurslardan daha səmərəli istifadə baxımından yeni imkanlar yarada bilər.

2023-cü ildə dünya əhalisinin 8 milyarda çatmasından sonra demoqrafik temp qismən zəifləyib. Son yarım əsrdə hər 12-13 ilə 1 milyard artım vardısa, indən sonra bu qədər artım üçün ən azı 20 il lazım olacaq.

# Dünyanın ən böyük buz və qar sərgisi

Çinin şimal-şərqindəki Heyluncian vilayətinin inzibati mərkəzi olan Harbin şəhərində 26-cı buz və qar dünyası sərgisi keçirilir.



Təxminən 1 milyon kvadratmetr sahəni əhatə edən tematik sərgidə 300 min kubmetr buz və qardan hazırlanmış fiqurlar nümayiş olunur. Onların arasında müxtəlif ölkələrdəki memarlıq nümunələrinin oxşarları, cizgi film qəhrəmanları da var.

Qeyd edək ki, Harbin buz və qar dünyası sərgisi ötən il sahəsinin böyüklüyünə görə "Ginnesin rekordlar kitabı"na düşüb. Ötən il sərgini 2,7 milyon nəfər ziyarət edib. Budəfəki sərginin sahəsi daha 25 faiz genişləndirilib. Çində populyar qış turizmi tədbiri olan Harbin sərgisi martın əvvəlinədək davam edəcək.

# Sağlam ömür və uzun ömür

Yeni beynəlxalq araşdırma sağlamlıq və ömür uzunluğu arasındakı fərqin artdığını ortaya qoyub. "JAMA Network Open" jurnalında dərc olunan tədqiqat Dünya Səhiyyə Təşkilatının 20 il ərzində 183 ölkədən topladığı məlumatlara əsaslanır.



Məlumatlara görə, qlobal ömür uzunluğu son 20 ildə 6,5 il artıb. Lakin gözlənilən sağlam ömür uzunluğu – yəni insanların yaxşı sağlamlıq şəraitində keçirdikləri illər – buna paralel irəliləyiş göstərməyib. 2000-ci ildə sağlam ömür və ümumi ömür arasındakı fərq 8,5 il olduğu halda, 2019-cu ildə bu fərq 9,6 ilə yüksəlib.

Araşdırmaya görə, ən böyük fərqlər ABŞ (12,4 il), Avstraliya (12,1 il), Yeni Zelandiya (11,8 il), Böyük Britaniya (11,3 il) və Norveçdə (11,2 il) qeydə alınıb. ABŞ-dəki boşluğun əsas səbəbləri arasında psixi sağlamlıq problemləri, narkotik maddə istifadəsi pozğunluqları və dayaq-hərəkət sistemi xəstəlikləri yer alıb.

Tədqiqatın müəlliflərindən Armin Qarmani qeyd edib ki, sağlam və ümumi ömür arasındakı fərq kişilərə nisbətən qadınlarda orta hesabla 2,4 il daha böyükdür. Ən böyük gender fərqləri Almaniya (3,6 il), İspaniya (3,4 il), Fransa (3,3 il) və Portuqaliyada (3,2 il) müşahidə olunub.

Araşdırma göstərir ki, sağlamlıqla bağlı həyat müddətindəki boşluğu azaltmaq üçün ölkələrə proaktiv və sağlamlıq mərkəzli səhiyyə sistemlərinə keçid vacibdir. Bu, sağlam həyat illərinin artırılmasına yönəlmiş qlobal sağlamlıq siyasəti və proqramlarının təkmilləşdirilməsinin əhəmiyyətini bir daha təsdiqləyir.

Xronoqraf

# Tarixdə bu gün



Olaylar, faktlar (23 – 28 dekabr)

**28 dekabr** Beynəlxalq Kino Günüdür. 28 dekabr 1895-ci ildə Parisdəki "Qran-kafe"də Lui və Ogüst Lümyer qardaşları icad etdikləri "Sinematoqraf" aparatı ilə ilk qısametrajlı filmin ("Fəhlələrin fabrikdən çıxması") seansını təşkil ediblər.

### 219 il əvvəl...

**27 dekabr 1805-ci ildə** Qarabağ və Şəki xanlıqlarını ələ keçirəndən (may 1805) sonra Şirvan xanlığı üzərinə yürüşə başlayan rus qoşunları Şamaxı şəhərinə daxil olublar. General Pavel Sisianovun Mustafa xana imzalatdığı müqavilə ilə Şirvan xanlığı Rusiyaya ilhaq edilib.

### 85 il əvvəl...



**27 dekabr 1939-cu ildə** Türkiyənin Ərzincan vilayətində 7,9 bal gücündə zəlzələ baş verib. Sivas və Samsun vilayətlərində də böyük dağıntılara səbəb olan zəlzələ nəticəsində, rəsmi məlumatlara görə, 33 minə yaxın insan həlak olub.

### 77 il əvvəl...

**23 dekabr 1947-ci ildə** SSRİ Nazirlər Soveti "Ermənistan SSR-də yaşayan azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edib. Köçməyə məcbur edilən ailələrə cəmi 2 ton yük götürməyə icazə verilirdi. Azərbaycanın rəhbəri M.Bağırovun İ.Stalinə müraciətindən sonra bu şərtləri qismən yumşaldan ikinci qərar (10 mart 1948-ci il) verildi. 1948–1953-cü illərdə 100 minə yaxın azərbaycanlı Ermənistandan deportasiya edildi. Sonradan onların bir qismi geri qayıtsa da, 1988-ci ilin deportasiyası azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırdı.

### 33 il əvvəl...

**25 dekabr 1991-ci ildə** SSRİ-nin Prezidenti Mixail Qorbaçov vəzifəsindən istefa verib. Moskva vaxtı ilə saat 19:00-da Mərkəzi Televiziyanın birbaşa efirində çıxış edən Qorbaçov Müstəqil Dövlətlər Birliyinin elan edilməsindən sonra bu vəzifədə qalmasının qeyri-mümkün olduğunu deyib. Saat 19:38-də Kreml üzərində SSRİ-nin bayrağı endirilib və Rusiyanın üçrəngli bayrağı qaldırılıb. Ertəsi gün SSRİ Ali Sovetinin sonuncu iclası keçirilib. İclasda ittifaqla bağlı bütün qurumların, o cümlədən SSRİ Ali Sovetinin fəaliyyətinə xitam verilib. Sovet İttifaqı quruluşunun 69-cu ildönümünə dörd gün qalmış rəsmən süqut edib.

***

**25 dekabr 1991-cü ildə** Prezident Ayaz Mütəllibov "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" fərman verib. Yeni əlifbaya keçid bir neçə ilə başa çatmalı idi, lakin proses çox uzandı. 2001-ci il iyunun 18-də Prezident Heydər Əliyev latın qrafikalı əlifbaya keçidin başa çatdırılması barədə fərman imzaladı və həmin il avqustun 1-dən proses tam həyata keçirildi.



**25 dekabr 1991-ci ildə** Azərbaycan Parlamenti – Ali Sovetin Milli Şurası 31 dekabrın "Dünya azərbaycanlılarının həmrəyliyi günü" elan olunması barədə qərar qəbul edib.

**Hazırladı: V.Orxan**

**Elan**

Bakı şəhəri Yasamal rayonu Fuad İbrahimbəyov küçəsi ev 12, mənzil 166 ünvanında yaşayan Muradova Zülfiyyə Kamil qızına məxsus qaraj üçün çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2893
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641